# Unikal

№47 (2181) 22 dekabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru


# "Biz onlara sübut etdik ki..." - Xankəndidən mühüm mesaj





Səh.3

## Adil Kərimli üçün həyəcan siqnalı

*İki il ara ilə - 2020 və 2022-ci illərdə - Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən anti-korrupsiya əməliyyatlarının həyata keçirildiyi, ciddi yeyinti və rüşvət faktlarının aşkarlandığı, nəticədə yüksək vəzifəli şəxslərin həbs olunduğu Mədəniyyət Nazirliyində sular durulmaq bilmir. Hesablama Palatası tərəfindən adıçəkilən nazirlikdə, eləcə də onun tabeliyindəki Kino Agentliyində aparılan yoxlamalar nəticəsində məlum olub ki, bu qurumda hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyirlər, nə yazının girişində bəhs etdiyimiz anti-korrupsiya əməliyyatlarından, nə də yüksək vəzifə sahiblərinin qandallanmasından dərs çıxarılıb. Hesablama Palatasından verilən məlumatdan aydın olur ki, 2022-ci il və 2023-cü ilin 01 avqust tarixinədək olan dövrü əhatə edən audit sonucunda ötən nəzarət tədbirinin nəticələri üzrə tədbirlərin həyata keçirilmədiyi...*

Səh.8

## "Son açıqlanan inflyasiya rəqəmləri ciddi suallar yaradır"



*REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, Mərkəzi Bankın uçot dərəcəsini endirməsindən, gələn il inflyasiyanın nə qədər ola biləcəyindən, pensiya artımlarının bazar qiymətlərinə uyğun olub-olmamasından və başqa məsələlərdən danışıb.*

Səh.4

## Mustafa Abbasbəyli də "yolun sonuna" yaxınlaşır



*Ötən sayımızda bəhs etdiyimiz kimi, 2024-ci ilin fevral ayının 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkinin ardından isə yeni hökumət kabineti formalaşdırılacaq. Həmin kabinetdə indiki bəzi iri məmurların yer almayacağı gözlənilir. Məhz bu məqamın artıq indidən...*

Səh.5

## "Sevincimin həddi-hüdudu yoxdur" - Qurban Qurbanov



*"MOİK komandasına təşəkkür düşür. Son saniyələrdə qol vurduq. Sevincimin həddi-hüdudu yoxdur". "Unikal" xəbər verir ki, bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov deyib. "İlk dəfə idi bu torpaqlarda olurdum. Tarixi bir gün oldu. Bu tarix boyu yaddaşlarda qalacaq və heç vaxt silinməyəcək.*

Səh.3

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 2



# Aygün Kazımovanın dünyaca məşhur modellə birgə fotosu yayıldı



***Aygün Kazımova yeni paylaşımı ilə diqqət çəkib.***

Xalq artisti bir bəylə səmimi fotosunu yayımlayıb. Pop diva şəklə "Örtərik üstümüzə bu yaralanmış sevgimizi" sözlərini yazıb. Kazımova ilə fotoda yer alan bəyin kimliyi isə maraq doğurub. Belə ki, şəkildəki şəxs dünya ulduzu Peris Hiltonunn məşhur modeli Marian Draqandır. Marian A.Kazımovanın klipində rol almaq üçün Türkiyəyə gəlib. Ekran işinin rejissoru Selim Akardır.

Marian Draqan Pop diva ilə bağlı fikirlərini bölüşərkən "Aygün Kazımova ilə çalışmaqdan böyük məmnunluq duydum. Belə gözəl layihədə yer aldığım üçün hər kəsə təşəkkür edirəm" sözlərini söyləyib. Onu da ələvə edək ki, ötən gün ifaçı klipin tizerini də sevənləri ilə bölüşüb.

Qeyd edək ki, rumın əsilli Draqan Peris Hiltonla fotoları sayəsində məşhur olub.

# "Nigar Camal münsif olmamalıdır" - Sərt reaksiya

***"İctimai TV"də yayımlanan "Maska" verilişinin televiziyada yox, sosial şəbəkədə yayımlanan hissələri izləmişəm. Hələ ən yaxşı hissələri yeni... Müsbət tərəfləri öz yerində. Həqiqətən, proqram yaxşı hazırlanır, maskalardan tutmuş çıxışlara qədər... İki məqam ürəyimcə olmadı".***




Bu sözləri aparıcı İradə İsak İTV-də efirə gedən "Maska" şousu ilə bağlı yazıb. O, yarışmada münsif kürsüsündə oturan Nigar Camalı tənqid edib: "Verilişdə Nigar Camalın ekspert kimi iştirakı doğru deyil. Tamam, xanım "Avroviziya" qalibidir, bu, öz yerində. Amma Azərbaycan musiqisindən, dilindən, ənənələrindən uzaq insandır. Deməli olar ki, onu az adam tanıyır. Əgər özləri demiş, məşhur xəfiyyələrin işi qəhrəmanın kimliyini tapmaqdırsa, bu iş qətiyyən onluq deyil. Hər dəfə də digər iştirakçıların ağzından çıxanları təkrarlamaqla məşğul olur. Bununla yanaşı, iştirakçıların yeri gəldi-gəlmədi, bu şounu keçirdiyi üçün İTV-ni, verilişi tərifləməsi, "Bizdə də belə layihə çəkilir, ay aman" sözlərini hər dəfə qeyd etməsi çox sünilik yaradır. Bu əziklikdən qurtulmaq lazımdır. "Maska" nə İTV-nin layihəsidir, nə də burada qeyri-adi nəsə yoxdur. Beynəlxalq layihədir, pulu olan alır, alanla da şərt kəsirlər ki, layihənin mövcud standartlarından çıxmaq, keyfiyyəti aşağı salmaq olmaz. Vəssalam, yoxsa dərhal dayandırırlar. Mən bir dəfə də elə bahalı layihəni gətirdiyi üçün Acun İlıcalıya təşəkkür edən bir münsif görmədim. Yəni artıq bu əziklik, yersiz tərif sindromunu bitirmək lazımdır. Qalan hər şey əladır".

İ.İsak bildirib ki, Nigarın yerinə münsif kürsüsünə Əməkdar artist Teymur Əmrah gətirilməsi daha yaxşı olardı: "Orada da ən doğru münsif olaraq Murad Arifi görürəm. Nigar Camalın yerinə isə kimi görürsünüzsə, təbii, Azərbaycan və dünya musiqisini bilən, başı çıxan birinin namizədliyini yaza bilərsiniz. Mənə də maraqlı olar. Mən Teymur Əmrah olaraq düşündüm. Həm də adamın şou tərəfləri də var. Maraqlı fikirləri var".

Qeyd edək ki, "Maska" şousunda münsif kürsüsündə Xalq artisti Faiq Ağayev, Əməkdar artist Coşqun Rəhimov, aparıcı Kamilə Babayeva, müğənnilər Murad Arif və Nigar Camal yer alırlar.



# "Səhhətimdə ciddi problem yaranmışdı" - Aybəniz Haşımova

***Əməkdar artist Aybəniz Haşımovanın səhhətində problem yaranıb.***

Müğənni bu haqda özü məlumat yayıb. O bildirib ki, ötən gün müayinə üçün Milli Onkologiya Mərkəzinə yollanıb: "Səhhətimdə ciddi problem yaranmışdı. Bu məni çox ciddi narahat etdi. Milli Onkologiya Mərkəzinə üz tutdum. Onlar mənə çox yaxşı xəbər verdilər. Dedilər ki, səhhətində heç bir problem yoxdur. Məndə ciddi bir xəstəliyin olmadığını söylədilər. Bu müjdəni verdikləri üçün həkimlərə sonsuz təşəkkürümü bildirirəm".

# Fəxrəddin Manafov 55 il sonra Xankəndiyə getdi

***Xalq artisti Fəxrəddin Manafov doğulduğu Xankəndiyə yollanıb.***



Aktyor bununla bağlı İTV-yə müsahibə verib. O bildirib ki, 55 ildir Xankəndidə olmayıb: "Sözlə hissləri ifadə etmək mümkün deyil. Qarabağla bağlı hər şeyin həyati mənası böyükdür. Son dəfə 14 yaşında Qarabağdan çıxmışam. 55 ildir... Şuşada olmuşam, amma Xankəndidə olmaq... Belə gözəl hal hər kəsin həyatında olmur".

F.Manafov bildirib ki, səfərinin məqsədi orada "Qarabağ" futbol klubunun oyununu izləmək olub.

# Roza buna görə belə arıqlayıb

***Müğənni Roza Zərgərli arıqlamağının sirrini açıqlayıb.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi "Gül kimi" şouda bu haqda sualları cavablandırıb. O bildirib ki, mədəqatlama əməliyyatı etdirib:

"Çəkim icazə vermirdi ki, mədəmi kəsdirim. Həm də mədə kəsdirəndə saç tökülür, çoxlu vitamin içməlisən. Ayağımda da problem var, kökəlmək olmaz. Bir versiyam var idi, mədəqatlatma etdirmək. 13 kiloqram çəki atmışam. Qalıb 5 kiloqramım".

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 3





## Səhiyyə naziri Teymur Musayev investisiya forumunda iştirak edib

***Bakıda xalqımızın ümummilli lideri Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilən Azərbaycan-Türkiyə investisiya forumu keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) təşkilatçılığı ilə baş tutan forum çərçivəsində müxtəlif mövzuları əhatə edən panel sessiyalar keçirilib.

"Azərbaycanda sağlamlıq turizmin inkişafı perspektivləri" adlı panel sessiyada çıxış edən Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, iki qardaş dövlətin prezidentlərinin rəhbərliyi altında ölkələrimiz arasında strateji əlaqələr dinamik inkişaf edir və müxtəlif sektorlar üzrə birgə tədbirlərin təşkili ənənə halını alır.

Nazir son illərdə qlobal səviyyədə sağlamlıq turizmi və tibbi turizmin rolunun artdığını qeyd edib.

"Dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022?2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi əsas fəaliyyət istiqamətlərindən biri olaraq müəyyən edilib", - deyə nazir bildirib.

Teymur Musayev qeyd edib ki, son illərdə müasir tibbi infrastrukturun qurulması, mütərəqqi texnoloji avadanlıqların tətbiqi və ixtisaslı insan resursları sayəsində Türkiyə Respublikası sağlamlıq və tibbi turizm üzrə beynəlxalq mərkəzə çevrilib.

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz 44 günlük Vətən müharibəsində tarixi torpaqlarımızı işğaldan azad etdi. Hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərində turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. İşğaldan azad olunmuş ərazilər sağlamlıq turizminin, ekoturizmin inkişafında böyük potensiala malikdir", - deyə Azərbaycanın səhiyyə naziri vurğulayıb.

Çıxışının sonunda Teymur Musayev forumun sektorun gələcək inkişafı baxımından faydalı olacağına ümidvar olduğunu bildirib.

Panel sessiyada, həmçinin Türkiyə Respublikasının səhiyyə nazirinin müavini Şuayip Birincinin, Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini İlqar Qasımovun, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin və digərlərinin çıxışları dinlənilib. Çıxışlarda Azərbaycanın sağlamlıq turizmin potensialı və ondan istifadə imkanlarının genişlənməsi, eyni zamanda Türkiyə təcrübəsinin Azərbaycanda tətbiqinin vacibliyi qeyd olunub.

Forum çərçivəsində "Azərbaycan Respublikasında investisiya imkanları", "İkitərəfli ticarət dövriyyəsinin artırılmasında nəqliyyat və logistika mərkəzlərinin rolu", "Yaşıl enerji və "smart city"", "Kənd təsərrüfatı və qida sənayesi sahələrində dialoq: cari çağırışlar və müasir həllər" və "Hərbi-texniki əməkdaşlıqda mütərəqqi texnologiyanın rolu" mövzularında panel sessiyalar keçirilib.

# Adil Kərimli üçün həyəcan siqnalı

## Mədəniyyət Nazirliyində "köhnə hamam, köhnə tas" - Yeni həbslər olacaqmı?

***İki il ara ilə - 2020 və 2022-ci illərdə - Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən anti-korrupsiya əməliyyatlarının həyata keçirildiyi, ciddi yeyinti və rüşvət faktlarının aşkarlandığı, nəticədə yüksək vəzifəli şəxslərin həbs olunduğu Mədəniyyət Nazirliyində sular durulmaq bilmir. Hesablama Palatası tərəfindən adıçəkilən nazirlikdə, eləcə də onun tabeliyindəki Kino Agentliyində aparılan yoxlamalar nəticəsində məlum olub ki, bu qurumda hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyirlər, nə yazının girişində bəhs etdiyimiz anti-korrupsiya əməliyyatlarından, nə də yüksək vəzifə sahiblərinin qandallanmasından dərs çıxarılıb.***

Hesablama Palatasından verilən məlumatdan aydın olur ki, 2022-ci il



və 2023-cü ilin 01 avqust tarixinədək olan dövrü əhatə edən audit sonucunda ötən nəzarət tədbirinin nəticələri üzrə tədbirlərin həyata keçirilmədiyi və nöqsanların aradan qaldırılmadığı müəyyənləşib. Belə ki, kinematoqrafiya sahəsində hüquqi aktların təkmilləşdirilməməsi ötən dövr ərzində də dövlət sifarişinin əhatə dairəsinin və filmlərin bu dairəyə uyğunluğunun qiymətləndirilməsi, həmçinin müsabiqələrin ədalətlilik və şəffaflıq prinsiplərinə uyğun keçirilməsi imkanlarını məhdudlaşdırıb. Sitat: "Əvvəlki auditdə müəyyən edildiyi kimi, cari auditdə də dövlət vəsaitlərinə tələbat və icra göstəriciləri arasında kəskin fərqlər olmuş, filmlərin istehsalında ilkin olaraq özəl studiyaların iştirakı proqnozlaşdırılmasa da, il ərzində bu studiyalara 9 film ilə bağlı vəsait ödənilib, icra zamanı ilkin nəzərdə tutulandan 2,7 dəfə az sayda bədii film çəkilib, 1 filmə proqnozlaşdırılmış məbləğdən 34,8% daha çox vəsait sərf edilib".

Ən ilginc məqamlardan biri isə odur ki, cari auditlə keçirilmiş müsabiqələrin nəticəsi kimi seçilmiş layihə və ssenarilər üzrə müqavilələrin bir çox hallarda bağlanılmadığı, növbəti illərdə isə yenidən analoji müsabiqələrin keçirildiyi müəyyənləşdirilmiş 2015-2020-ci illərdə 282,5 min manat məbləğində satın alınmış 20 ssenari üzrə film istehsal olunmayıb!

Başqa bir diqqətçəkən detal: seçilmiş ssenarilər üzrə çəkilməsinə qərar verilmiş bəzi filmlər müxtəlif səbəblərdən konservasiya edilib, bu isə maliyyələşdirilmiş hissə üzrə vəsaitin səmərəsiz xərclənməsinə yol açıb. Belə halların bəziləri üzrə, ümumiyyətlə, filmin istehsalının başlanılması barədə müvafiq əmr verilməyib, həmçinin film istehsalı işlərinin müvəqqəti dayandırılması və ya xitam verilməsi müvafiq əmrlə rəsmiləşdirilməyib. 2022-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası ilə bağlanmış 3, "Salnamə" studiyası ilə bağlanmış 1 müqavilənin icrası başa çatdırılmayıb, həmin müqavilələr üzrə 304,7 min manat vəsait ödənilib.

Əvvəlki auditdə olduğu kimi, bu auditlə də bir sıra hallarda bağlanılmış müqavilələrin icra müddəti bitdikdən sonra, filmin başa çatdırılmaması səbəbindən bir sıra hallarda əlavələr edilməklə müqavilənin icra müddətinin uzadıldığı, bəzi hallarda belə uzadılmaya rəğmən istehsalın başa çatdırılmadığı, auditin əhatə etdiyi dövrdə bu halların 3,0 mln. manata yaxın vəsaiti əhatə etdiyi müəyyənləşdirilib. Sitat: "Dövlət sifarişlərinin yerinə yetirilməməsi səbəbindən bir sıra hallarda kinostudiyalarla bağlanılmış müqavilə çərçivəsində filmlərin istehsalına ayrılmış vəsaitin icra prosesində təyinatının dəyişdirilməsi hallarına yol verilmiş, bəzi hallarda isə müştərək maliyyələşmə üzrə öhdəliklər yerinə yetirilməmişdir ki, bu məqamlar da filmlərin ilkin dəyərinin artıq müəyyənləşdirildiyini qeyd etmək imkanı verir. Həmçinin bağlanılmış müqavilənin şərtləri pozularaq çəkilmiş filmin müstəsna yayım hüququnun Nazirliyin razılığı alınmadan üçüncü şəxsə verilməsi halı da müəyyən olunub..."

O da aydınlaşıb ki, Nazirlik tərəfindən tədbirlərin keçirilməsi ilə bağlı satınalmalarda ehtimal olunan qiymətin bir çox hallarda müəyyənləşdirilməməsi eyni xidmət üzrə fərqli qiymətlərin formalaşmasına səbəb olmuş, eləcə də müqavilələrin düzgün tərtib edilməməsi və qüvvədə olan normalara əməl olunmaması artıq xərclərə yol açıb. Bəzi hallarda təsdiqedici sənədlərin alınmaması vəsait-nəticə uyğunluğunun ədalətli müəyyənləşdirilməsinə şərait yaratmayıb, bir sıra hallarda tədbirlərin və müqavilələrin müddətlərinin uyğunlaşdırılmaması xidmətin dəyərinin daha uzun müddət üçün ödənilməsi ilə artıq vəsait icrasına səbəb olub.

Dövlət büdcəsindən filmlərin çəkilməsi və tədbirlərin keçirilməsi üçün ayrılmış vəsait hesabına xarici ölkələrdə və respublika daxilində keçirilən kino tədbirlərində iştirak etmək üçün bəzi hallarda xərclər təkrar maliyyələşdirilib, həmçinin xarici ölkələrdə fəaliyyət göstərən rejissorların dövlət sifarişi ilə çəkilməyən filmlərinin festivallarda iştirakının maliyyələşdirilməsinə vəsait ödənildiyi müəyyən olunub.

Bütün bunlar azmış kimi, vergi qanunvericiliyinin tələblərinin gözlənilməməsi dövlət büdcəsinin gəlirləri ilə bağlı öhdəliyin tam yerinə yetirilməməsi ilə nəticələnib, eləcə də film istehsalı ilə bağlı bağlanan mülki-hüquqi müqavilələr üzrə ödəmələrin təsdiq olunmuş haqlara uyğun nəzərdə tutulmaması və aylıq ödəniş haqqı nəzərdə tutulmayan istiqamətlərə vəsait ödənilməsi məqsədli ayırmalara əlavə tələbat formalaşdırıb.

Bir sözlə, Hesablama Palatasının yoxlamasından sonra Mədəniyyət Nazirliyi və onun tabeliyindəki Kino Agentliyində ənənəvi korrupsiya əməllərinin bu və ya digər formada davam etdirildiyi aydınlaşır. Məhz ona görə də aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibi əlamətlərinin olma ehtimalı diqqətə alınaraq müvafiq materiallar Baş Prokurorluğa göndərilib.

Halbuki Əbülfəs Qarayev və Anar Kərimov oxşar səbəblər ucbatından nazir postunu itirdikdən sonra Adil Kərimlinin təyinatı Mədəniyyət Nazirliyində, onun tabeliyindəki qurumlarda nəhayət ki, şəffaflığın ön plana çıxacağı, ənənəvi iş prinsiplərinin dəyişəcəyi, dövlət vəsaitlərinin nəhayət ki, təyinatı üzrə xərclənəcəyi ilə bağlı gözləntilər yaranmışdı. Hesablama Palatasının audit nəticələrindən isə belə aydın olur ki, həmin gözləntilər elə gözləntisi olaraq qalıb, sözügedən nazirlikdə biriləri hələ də ölkə mədəniyyətini deyil, şəxsi maraqlarını, mənfəətlərini düşünməkdədir.

Bunu A.Kərimli üçün həyəcan siqnalı hesab etmək olar - işlər belə davam edərsə hazırkı nazir də bu postda uzun müddət tab gətirə bilməyəcək.

***Sənan Mirzə***

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 4



# Azərbaycanla Ermənistan arasındakı sülhün qarantiyası: İrəvan narahatdır, Bakı isə...

***Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində gedən proses müsbət məcraya yönəlməkdədir. Artıq Ermənistan tərəfi də bu sülh müqaviləsinin onlar üçün yeganə çıxış yolu olduğunu anlayır. Bu səbəbdən də rəsmi Bakıya “sülhə hazırıq” müsajını vermək məcburiyyətindədir.***

Azərbaycan rəsmiləri də “haqqın yolu birdir”, - deyərək, sülh prosesinə bizim təqdim etdiyimiz prinsiplər daxilində hazır oluğunu bəyan edib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev xarici mediaya müsahibəsində də bu barədə rəsmi Bakının mövqeyini açıq şəkildə ifadə edib. O qeyd edib ki, hələ də müzakirə edilməli olan məsələlər var. Lakin biz sülh gündəminə daha yaxınıq, artıq böyük problemli məsələlər görmürük. Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan özünün tam suverenliyini və ərazi bütövlüyünü bərpa edib: "Sülhün toxumları bizim regionda, Bakı və İrəvandadır. Digər tərəfdaşlarımız bizə irəliləməkdə kömək edə bilər, lakin bəzən biz özümüzü vasitəçilər arasında vasitəçilik etməyə çalışdığımız bir vəziyyətdə tapırıq”.

Diplomatın sözlərinə görə, Bakı Vaşinqtonda, Moskvada və ya Brüsseldə keçirilən sülh danışıqlarını istisna etmir: ”Harada görüşməyimizin əhəmiyyəti yoxdur, əsas odur ki, nəticəyönümlü olsun. Biz Ermənistan tərəfdən yalan həyəcan və isteriya görürük. Azərbaycanın artıq heç bir hərbi məqsədi yoxdur. Bizim üçün müharibə və qarşıdurma bitdi. Biz layiq olduğumuz şeylərə nail olduq”. Prezidentin köməkçisi bildirib ki, Azərbaycan müxtəlif etnik azlıqların sülh şəraitində yanaşı yaşadığı çoxmillətli cəmiyyətə malik olmaqdan qürur duyur: ”Eyni şərait Qarabağda yaşayan ermənilərə də verilə bilər. Amma biz təcavüzkar separatizmi, qondarma Dağlıq Qarabağ Respublikasını, həmçinin yerdəki silahlı qüvvələri qəbul edə bilmərik”.

Məsələ ilə bağlı fikirlərini bizimlə bölüşən siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, Azərbaycan tərəfinin hazırkı mövqeyini sülh sazişini indi imzalamaq, sərhəd müəyyənləşməsini isə sonraya saxlamaq təklifi hesab etmək olar: “Bakı bununla sülh sazişinin daha tez imzalanmasında maraqlı tərəf olduğunu göstərir. Bunun üç mümkün səbəbi var. Birincisi, sərhədin delimitasiyası uzunmüddətli prosesdir və tərəflər arasında fikir ayrılığının olduğunu nəzərə alsaq, bu, sazişin imzalanmasını gecikdirəcək. İkincisi, Ermənistan “güzgü prinsipi” üzrə qoşunların geri çəkilməsini istəyir, bu, sərhəddə strateji yüksəkliklərə nəzarəti bərpa edən Azərbaycanın xeyrinə olmadığı üçün məsələnin sonraya saxlanılması Bakının maraqlarına daha uyğundur. Üçüncüsü, Azərbaycan Ermənistanla münasibətlərin ikitərəfli formatda həll edilməsindən yanadır, hərçənd, sərhədin müəyyən edilməsi sovet xəritələrini gündəmə gətirir ki, bu da xəritələrin olduğu Rusiyanın prosesdə iştirakını şərtləndirəcək. Birinci və üçüncü amil Ermənistan üçün də keçərlidir, xüsusilə kommunikasiyların açılmasının tezləşməsi fonunda. İrəvan anklavlar məsələsinə görə də sərhədin müəyyənləşməsinin ayrıca müzakirəsində maraqlı ola bilər, lakin sülh sazişi üçün Naxçıvana çıxış məsələsində Bakının “Azərbaycandan Azərbaycana prinsipi”ni qəbul etməlidir: Naxçıvana aparılan yüklər və gedən sərnişinlər gömrük rüsumundan azad edilməli, sərhəd yoxlaması tətbiq edilməməlidir; əks təqdirdə, sazişin imzalanması sual altına düşür. Burada bir mümkün variant da ola bilər: tərəflər qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınmasını rəsmiləşdirir, fikir ayrılığının olduğu məsələlər - sərhəd və kommunikasiyaların hansı prinsiplərlə müəyyən edilməsi sonraya saxlanılır; bu halda kommunikasiyanın açılması arxa plana keçdiyi üçün itirən yenə Ermənistan olacaq”.

Politoloq Məhəmməd Əsədullazadə mövcud durumu dəyərləndirərkən deyib ki, Azərbaycanla Ermənistan arasında yeni müharibə ehtimalı yoxdur. “Ermənistan ABŞ-nin təlimatı ilə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Əlbəttə, Ermənistanın bu məsələdə təkbaşına qərar verəcək siyasi iradəsi yoxdur. İndi ABŞ Ermənistanı məcbur edir ki, Azərbaycanın ikitərəfli danışıqlar təklifini qəbul etsin və sülh müqaviləsini imzalasın. Vaşinqton bir müddət Ermənistanın iddialarından çıxış etsə də, sonradan anladı ki, bununla Cənubi Qafqazdakı məqsədlərinə nail ola bilməyəcək”, - ekspert bildirib.

Məhəmməd Əsədullazadənin fikrincə, ABŞ sülh sazişini Cənubi Qafqazdakı mövqelərinin gücləndirilməsi kontekstində nəzərdən keçirir: “ABŞ məqsədlərinə nail olmaq üçün Azərbaycana təzyiq siyasətindən geri çəkilib. Hesab edirəm ki, dövlət katibi Entoni Blinken praqmatik siyasətçidir və Azərbaycanın ölkəsi üçün önəmini anlayır. Gələn ay Vaşinqtonda xarici işlər nazirlərinin görüşü baş tutsa, sülh müqaviləsi ilə bağlı həll edilməyən maddələr müzakirə ediləcək. Sülh müqaviləsi bağlansa, Ermənistan tərəfindən qarant ABŞ, Azərbaycan tərəfdən isə Türkiyə ola bilər. Ermənistan da ABŞ-nin hansısa formada sülh müqaviləsinin imzalanmasında iştirakını istəyir. Azərbaycan isə Amerikanın təktərəfli iştirakına razı deyil. Bu baxımdan, ortaq məxrəcə gəlmək üçün Türkiyə masada ola bilər”.



Azərbaycan Milli İstiqlal Partiyasının qurucusu və ilk sədri, keçmiş millət vəkili Etibar Məmmədov isə deyib ki, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının vasitəçisiz, birbaşa aparılması olduqca vacibdir. E.Məmmədov bakıvaxtı.az-a açıqlamasında bildirib ki, tərəflərdə bir-birinə qarşı inam formalaşmalıdır: ”Proses yavaş-yavaş gedir və kiçik də olsa nəticələr var. Birbaşa və qarşılıqlı inam əsasında aparılacaq danışıqlar sülhə gətirib çıxara bilər. Düzdür, buna mane olanlar da olacaq. Ona görə də burada əsas məsuliyyət Ermənistanın üzərinə düşür. İrəvan düz yola gəlməlidir. Ermənistan müəyyən qarantiyalar istəyir. Böyük dövlətlərin də sülh sazişində iştirakına çalışırlar. Rusiya istəyir ki, sülh Moksvanın, Qərb isə çalışır ki, Vaşinqton və Brüsselin vasitəçiliyi ilə reallaşsın. Hər şey Ermənistanın qərarından asılıdır. Azərbaycan hər ikisinə razıdır”.

Sabiq deputat əlavə edib ki, Türkiyənin də sülh prosesində iştirakı vacibdir: ”Problem ondadır ki, Ermənistan Türkiyəni Azərbaycanın tərəfi kimi qəbul edir. Ancaq İrəvanın nə cür qəbul etməsindən asılı olmayaraq, Türkiyəsiz sülh müqaviləsinin heç bir qarantiyası yoxdur. Türkiyənin prosesdə iştirakı vacib və zəruridir”.

***M.İbrahimli***



# Fransanın casus şəbəkəsi Azərbaycanda ifşa olundu

***Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi Azərbaycanda ifşa olunub.***

“Unikal” xəbər verir ki, bu barədə Qərb mətbuatında məlumat yayılıb. Qeyd olunur ki, hər şey Fransa səfirlik daxili rezidenturasının Azərbaycan ərazisində əslində Fransanın “tərəfdaşı” kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməllərinə görə diqqətə düşməsi ilə başlayıb. Geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət etməklə yeni məqsədlər formalaşdırmaq və təsir dairəsini genişləndirməklə məşğul olub.

Məlumata görə, mənbələrdən əldə edilmiş informasiyaya əsasən, araşdırma bir-biri ilə əlaqəli xüsusatlar şəbəkəsini aşkarlamağa imkan verən çox maraqlı aspektləri üzə çıxarıb, uzun illər Fransa casus şəbəkəsinin ştatdankənar əməkdaşı olmuş Fransa vətəndaşlarından biri könüllü olaraq Azərbaycan hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşəbbüs göstərib.

Müəyyən müddət ərzində bir qismi indi və ya əvvəllər Azərbaycanda xidmət etmiş, bəziləri müxtəlif ölkələrdə və nüfuzlu beynəlxalq təşkilatlarda örtülü işi davam etdirən onlarla Fransa xəfiyyəsi aşkarlanıb. Bununla yanaşı, Azərbaycan xüsusi xidmət orqanlarına Fransa rezidenturasının Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyətinə dair dəlil və sənədlər təqdim edilib.

Azərbaycan xüsusi xidmət orqanları tərəfindən istintaq olunan cinayət işi üzrə Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqədar kəşfiyyat fəaliyyətini həyata keçirən bir sıra şəxs həbs olunub, bəziləri isə istintaq altındadır.

Mənbə hesab edir ki, uğursuzluğun miqyası Fransa kəşfiyyatının imicinə tarixi zərbə olacaqdır.

Azərbaycan tərəfi məsələ ilə bağlı hələ ki rəsmi açıqlama verməyib.

Bununla yanaşı, hazırda yayılan xəbərlərdə o da bildirilir ki, Fransa Prezidenti Emanuel Makron dünən Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad edib. Bernar Emyenin mümkün istefası barədə kəşfiyyatın Afrika və Cənubi Qafqaz sahələrindəki uğursuzluğundan sonra danışılmağa başlanıldı.

Daxili Təhlükəsizlik Baş İdarəsinə (DGSİ) rəhbərlik etmiş Nikolas Lerner isə Xarici Kəşfiyyat strukturuna yeni rəhbər təyin edilib.

# Deputat qanuna cəza mexanizminin salınmasını təklif etdi

***Milli Məclisin deputatı Jalə Əliyeva qanunvericiliyə dayələrlə bağlı cəza mexanizminin salınmasını təklif edib.***

“Unikal”ın məlumatına görə, o, bu təkliflə parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin bugünkü iclasında çıxış edib.

Onun sözlərinə görə, dayələr birbaşa ailəyə yaxın insanlar olmasa da, zamanla ailənin fərdinə çevrilir: “Dayələr içərisində işini ləyaqətlə görən, baxdığı uşağı sevən olsa da, zorakılıq edənləri də var. Sosial şəbəkədə bununla bağlı çox sayda görüntülərin şahidi oluruq. Odur ki, qanunvericiliyə dayələrlə bağlı hər hansı cəza mexanizminin salınması yaxşı olardı”.

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 5



# Prezident İlham Əliyev Şuşada görülən işlərilə tanış olub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində və Qarabağ küçəsində aparılan tikinti işləri, "Aşağı Gövhər Ağa" məscidində aparılan bərpa və Daşaltı kənd məscidinin tikinti işləri ilə tanış olub.***



"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Prezident İlham Əliyev dekabrın 21-də Şuşa rayonunun Daşaltı kənd məscidində tikintisi işlərinin gedişi ilə tanış olub. Dövlət başçısına görülən işlər barədə məlumat verilib. Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır.

Respublikasının Prezident İlham Əliyev Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri ilə tanış olub. Dövlət başçısına görülən işlər barədə məlumat verildi. Bildirildi ki, şəhərin mərkəzi küçəsinin layihəsi ümumilikdə 10 bina olmaqla dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Tikilməkdə olan binalarda artıq dəmir-beton konstruksiya işləri yekunlaşmaq üzrədir. Binalarda fasad və dam örtüyü işlərinə tezliklə başlanılacaq. Həmçinin layihə çərçivəsində Sadıqcanın evinin bərpa işlərində də başlanılıb.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqət mərkəzində saxlanılır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilir.

Ölkə başçısı Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olub. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılır. Dövlət başçısı yaşayış kompleksində hazır mənzillərə baxıb. Məlumat verilib ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Diqqətə çatdırılıb ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

# Səməd Seyidov Lavrovun müavini ilə görüşdü

***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanda səfərdə olan Rusiya xarici işlər nazirinin müavini Aleksandr Quşko ilə görüşüb.***



Bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Səməd Seyidov bildirib ki, Azərbaycan və Rusiya arasında qarşılıqlı hörmətə əsaslanan sıx münasibətlər mövcuddur. Çoxəsrlik tarixə malik olan Azərbaycan-Rusiya münasibətləri ölkələrimiz arasındakı ənənəvi dostluq əlaqələrinə söykənir. Hər iki ölkə prezidentinin rəhbərliyi ilə dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq yeni səviyyəyə yüksəlib. Azərbaycan-Rusiya parlamentlərarası əlaqələri də dinamik inkişaf edir və bu sahədə parlamentlərarası dostluq qruplarının xüsusi rolu var.

Səmimi görüşə görə təşəkkürünü bildirən Rusiya Federasiyası xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib ki, Rusiya Azərbaycanla qarşılıqlı münasibətlərin inkişafında maraldır.

O, ölkələr arasında mövcud olan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin əhəmiyyətindən danışıb, ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığını yüksək qiymətləndirib.

A.Qruşko 2020-ci ilin noyabrında imzalanmış Üçtərəfli Bəyanatın bütün müddəalarının həyata keçirilməsinin və tezliklə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının vacibliyini qeyd edib. O, həmçinin Rusiya və Azərbaycan arasında parlamentlərarası münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyətindən danışıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

Görüşdə Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Yevdokimov və digər rəsmi şəxslər iştirak ediblər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Prezidentliyə namizədliyi təsdiqlənənlərin sayı 7-yə çatdı

***Azərbaycanda prezidentliyə namizədliyinin irəli sürülməsi təsdiqlənənlərin sayı 7-yə çatıb.***



"Unikal" xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının bu gün keçirilən iclasında namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc və Fuad Əliyev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayevin namizədliyinin irəli sürülməsinin təsdiq olunması barədə məsələni səsverməyə çıxarılaraq qəbul edilib.

Qeyd edək ki, bundan öncə MSK İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini təsdiqləyib.

# Prezident Administrasiyasında yeni TƏYİNAT



***Prezident Administrasiyasının QHT-lərlə iş sektoruna müdir təyin olunub.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Tural Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektoruna müdir təyin edilib.

O, 1985-ci ildə anadan olub. Bakı Dövlət Universitetinin politologiya ixtisası üzrə bakalavr, Milli təhlükəsizlik və siyasi strategiya ixtisası üzrə magistr pillələrini fərqlənmə diplomları ilə bitirib, siyasi elmlər üzrə fəlsəfə doktorudur.

Tural Əliyev 2013-cü ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında çalışır, dövlət qulluğunun baş müşaviridir.

# Nazirdən avtomobillərin texniki baxışı ilə bağlı qərar

***"Nəqliyyat vasitələrinin texniki vəziyyətinə və onların təhlükəsiz hərəkətinin təmin edilməsinə Dövlət Yol Polisinin nəzarəti qaydaları barədə Təlimat"da dəyişiklik edilib.***



Daxili işlər naziri Vilayət Eyvazov dəyişiklik barədə müvafiq qərar imzalayıb.

Qərarla nəqliyyat vasitəsinin qanunla müəyyən edilmiş hallarda dövlət texniki baxışı keçirilərkən sürücülərdə dövlət rüsumu ilə yanaşı, "Tullantılar haqqında" qanuna uyğun olaraq müəyyən edilən utilizasiya haqqının da ənədi olmalıdır. Bununla yanaşı, dövlət texniki baxışının həyata keçirilməsi zamanı, dövlət rüsumu ilə yanaşı, utilizasiya haqqı da ödənilməlidir.

Qərar respublika daxili işlər orqanlarında elan edilib və sənədlə bağlı bənd 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

# Türkiyə sülhün ən qısa zamanda imzalanacağına ümid edir - Hakan Fidan

***İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında tarixi sülh fürsəti daha da güclənib.***

Bunu Türkiyənin xarici işlər naziri hakan Fidan Türkiyə Böyük Millət Məclisində (TBMM) çıxışı zamanı bildirib.

O qeyd edib ki, Türkiyə iki ölkə arasında etimadı artıran qəbul edilən konkret addımlardan məmnuniyyət duyur, sülh sazişinin ən qısa zamanda imzalanacağına ümid edir.

Nazir deyib ki, Türkiyə Azərbaycanla müttəfiqlik səviyyəsinə yüksəltdiyi münasibətlərini hər sahədə genişləndirir.Hakan Fidan bildirib ki, ölkəsi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına dəstək verir.



# "Biz onlara sübut etdik ki..." - Xankəndidən mühüm mesaj

***Ötən gün xalqımız tarixi hadisəyə şahidlik edib. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları üz-üzə gəlib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı:**

- Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.



Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!



Sonra Ulu Öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş olundu. Stadiona daxil olan dövlətimizin başçısı futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi. Prezident İlham Əliyevin topa rəmzi toxunuşundan sonra "Qarabağ"-MOİK görüşü başlayıb.



# Prezident idman ictimaiyyətinin nümayəndələri ilə görüşdü

***Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Xoş gəlmisiniz Xankəndiyə!

İdmançılarla ənənəvi görüşü bu il Xankəndidə keçiririk. Bunun çox böyük mənası var. Sizi, ilk növbədə, əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırmısınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz.

Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm.

Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını - uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi - Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Mən sizi buraya dəvət etməklə sizə öz münasibətimi, hörmətimi bildirmək istəmişəm. Bu görüşü biz Bakıda da keçirə bilərdik. Ancaq hesab etdim ki, bu görüşün burada keçirilməsi və sizə bu yüksək mükafatların burada verilməsi tam ədalətli olacaqdır. Bir daha təbrik edirəm.

# "Sevincimin həddi-hüdudu yoxdur" - Qurban Qurbanov

***"MOİK komandasına təşəkkür düşür. Son saniyələrdə qol vurduq. Sevincimin həddi-hüdudu yoxdur".***

"Unikal" xəbər verir ki, bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov deyib.

"İlk dəfə idi bu torpaqlarda olurdum. Tarixi bir gün oldu. Bu tarix boyu yaddaşlarda qalacaq və heç vaxt silinməyəcək. Bütün xalqımızı təbrik edirəm. Başda cənab Prezident İlham Əliyev olmaqla Ordumuza təşəkkür edirəm. Allah şəhidlərimizə rəhmət eləsin, ailələrinə səbr versin. Qazilərimizə şəfa diləyirəm", - deyə Q.Qurbanov qeyd edib.

# "Son açıqlanan inflyasiya rəqəmləri ciddi suallar yaradır"

## Natiq Cəfərli: "Azərbaycanda təqaüdlər və maaşlar o qədər aşağıdır ki, əgər ciddi, nəzərəçarpacaq dəyişikliklər istəyiriksə, rəqəmlərdə artım olmalıdır"



***REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, Mərkəzi Bankın uçot dərəcəsini endirməsindən, gələn il inflyasiyanın nə qədər ola biləcəyindən, pensiya artımlarının bazar qiymətlərinə uyğun olub-olmamasından və başqa məsələlərdən danışıb.***

***-Natiq bəy, dekabrın 20-də Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 0,5 faiz bəndi azaldılaraq 8,5 %-dən 8 %-ə endirilməsi barədə qərar qəbul edib. Bu qərardan sonra kredit faizlərinin aşağı düşməsi gözlənilirmi?***

-Mərkəzi Bankın uçot dərəcəsini aşağı salacağı gözlənilən addım idi. Digər dünya ölkələrində də buna paralel tendensiya davam edir. Dünyada da uçot dərəcəsinin aşağı salınmasına dair addımların atılmasına hazırlıqlar gedir. Ona görə də, Mərkəzi Bankın da bu qərarı verəcəyinin gözlənilən olduğunu demək olar. Təəssüf ki, uçot dərəcəsinin aşağı salınmasının inflyasiya göstəricilərinə birbaşa təsiri yoxdur. Azərbaycan iqtisadiyyatının spesifik xüsusiyyətlərindən irəli gələrək, ölkəmizdə uçot dərəcəsi inflyasiyaya birbaşa təsir göstərmir. Digər tərəfdən, uçot dərəcəsi kredit faizlərinə təsir göstərir. Mərkəzi Bank uçot dərəcəsini aşağı saldıqca, belə bir şans və ümid yaranır ki, banklar da kredit faizlərini aşağı salacaq. Bununla bağlı müəyyən gözləntilər formalaşır. Yaxın zamanlarda kredit faizlərinin aşağı düşməsini görə bilərik.

***-Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda inflyasiya 9.4% təşkil edib. Gələn il inflyasiyanın azalacağı proqnozlaşdırılır. Sizcə, 2024-cü ildə inflyasiya nə qədər ola bilər?***

-Son açıqlanan inflyasiya rəqəmləri ciddi suallar yaradır. Uzun müddətdir ard-arda 11 faizdən yuxarı inflyasiya rəqəmləri var idi. Oktyabr-noyabr aylarında nə baş verdi ki, 9,7-9,8 faizə düşdü. İki faizə yaxın azalmanın səbəbini hökumət açıqlamadı. Əslində inflyasiya azalsa, qiymətlər aşağı düşsə, hamımız sevinərik. Təəssüf ki, vizual olaraq real həyatda bunu hiss etmirik. Ola bilər hökumətin başqa məlumatları var, onunla bağlı detallı məlumat versələr, hansı sahələrdə və nə qədər qiymətlərin aşağı düşdüyünü, bunun ümumi inflyasiya proseslərinə necə təsir etdiyini daha açıq şəkildə görə bilərdik. Hələki detallı məlumat görmürük. Gələn il inflyasiyanın hökumət və Mərkəzi Bank 6-7 faiz civarında olmasını gözləyir. Yəni, inflyasiyanın birrəqəmli olması proqnozlaşdırılır. Dünyada da inflyasiya səngiyir. Haradan ki, daha çox məhsul alırıq orada da inflyasiya göstəricilərinin səngiməsini görürük. Bu, idxal inflyasiyasına müsbət təsir göstərəcək. Belə ki, xaricdən gələn məhsulların qiymət artımının tempi azalacaq. Bu, Azərbaycanda da birrəqəmli inflyasiya hədəfinə çatmağın mümkün olacağını əminliklə söyləməyə imkan vermir. Bizim iki əsas ticarət partnyorumuz var. Bu, Türkiyə və Rusiyadır. Həmin ölkələrin milli valyutası sabit deyil. Həm türk lirəsi, həm də rus rublu ilə bağlı ciddi dalğalanmaları görürük. Ona görə də oradakı vəziyyətdən asılıdır. Türkiyə Mərkəzi Bankı da qərarını açıqlayacaq. Orada da ciddi sıxlaşdırma siyasəti yürüdürlər ki, inflyasiyanı cilovlasınlar. Rusiyada da eyni addım atıldı. Bu yaxınlarda Rusiya Mərkəzi Bankı inflyasiya ilə mücadilə çərçivəsində uçot dərəcəsini yenə artırdı. Həmin ölkələr ticarət tərəfdaşımız olduğu üçün orada qiymət səngiməsi baş verərsə, inflyasiyanı cilovlamaq mümkün olarsa, bunun Azərbaycana müsbət təsirlərini görə bilərik. İmkan və şans var ki, inflyasiya birrəqəmli olsun. Bunun üçün hökumət daxili bazarda müəyyən yeniliklər etməlidir. İllərdir təklif edirik ki, ərzaq məhsulları və dərman preparatlarında ƏDV-də endirimə gedilsin. 18% kifayət qədər yüksək rəqəmdir və inflyasiyaya da təsir göstərir. Əgər ƏDV-ni azaltmaq mümkün olarsa, Azərbaycanda birrəqəmli inflyasiyanı rahat şəkildə əldə etmək mümkün olar. Hər ilin əvvəlində belə bir sual yaranır ki, dövlət tərəfindən tənzimlənən qiymətlərdə müəyyən artım ola bilər. Əgər hökumət inflyasiya rəqəmlərinin aşağı olmasını istəyirsə, yanvardan özünün nəzarətində olan qiymətlərdə dəyişiklik etməli deyil. Yəni, nəqliyyat xərclərində, enerji daşıyıcılarında bahalaşmaya getməli deyil ki, inflyasiyanı nəzarətdə saxlamaq mümkün olsun. Ümid edirik ki, yanvar ayında bizi "sürprizlər" gözləməyəcək.

***-Gələn il pensiyanın 11 faiz artırılacağı nəzərdə tutulur. Pensiyalardakı bu artım indiki qiymətlərə adekvatdırmı?***

-Azərbaycanda təqaüdlər və maaşlar o qədər aşağıdır ki, əgər ciddi, nəzərəçarpacaq dəyişikliklər istəyiriksə, rəqəmlərdə artım olmalıdır. Hətta 20 faiz artsa belə, əhalini tam qane edəcəyini söyləmək mümkün deyil. 11% -lik artım da az deyil, ikirəqəmli artımdır. Amma bu əhalinin gözləntilərinə tam cavab verirmi? Bununla bağlı da ciddi problemlər var. Əhalinin gözləntiləri o idi ki, daha yüksək artım olacaq. Burada hökumətin arqumenti ondan ibarətdir ki, daha sürətli artım olsa, ciddi inflyasiya olacaq. Yəni, pul dövriyyəsi artdıqca, qiymətlər də yüksələcək. İnflyasiya Azərbaycanda real gəlirləri obrazlı desək, yeyib-bitirir. 9,8%-lik inflyasiya rəqəmini həqiqət qəbul etsək belə, 11 faiz artım o deməkdir ki, insanların real gəlirləri 1-1,5 faiz artacaq. Təbii ki, bu da gözləntilərə tam cavab vermir.

***-Ölkəmizdə belə bir tendensiya müşahidə olunur ki, bir ay əvvəldən pensiyaların nə qədər artacağı ilə bağlı fikirlər səsləndirilən kimi, ərzaq qiymətlərində artımların şahidi oluruq. Belə desək, bahalaşma gözlənilən artımları "yeyir"...***

-İnflyasiyaya ən çox təsir edən məqamlardan biri gözləntilərdir. Bizdə hökumətin gözləntiləri idarəetməklə bağlı problemi var. Ona görə də bazarda, dövriyyədə pul artacaq, bu da qiymətlərin artımına səbəb olacaq məsələsi uzun müddətdir bazarda hakimdir. Pensiyaların, maaşların artacağı ilə bağlı xəbərlər çıxan kimi, mağazalarda da paralel olaraq qiymət artımının şahidi oluruq. Bu, pis bir ənənədir. Amma Azərbaycanda qiymətlərin artımına təsir göstərən əsas amillər heç pul dövriyyəsinin artması deyil. Bunun da təsiri var, amma əsas deyil. Problem heç pərakəndə satış bazarında da deyil. Burada söhbət topdansatış ticarəti ilə məşğul olanlardan gedir ki, burada problem var. Pərakəndə satış istədyi məhsulu, istədiyi qiymətə sata bilər. Qazancından vergisini verməlidir. Onun istədiyi qiymətə sata bilməməsi üçün isə rəqabətli mühit lazımdır. Ən böyük problem rəqabətli mühitlə və topdansatış ticarəti ilə bağlıdır. Rəqabətli mühit zəif olanda, topdansatış bazarında azsaylı oyunçular olanda təbii ki, qiymətlərin bu məsələyə görə artımı daha çox baş verir. Bayramlar öncəsi qiymətlər daha sürətlə artır.

***-Quru sərhədlərinin bağlı qalması da iqtisadiyyata müəyyən təsir göstərir. Növbəti ildən etibarən quru sərhədlərinin açılması gözlənilirmi?***

-Quru sərhədlərinin bağlı olmasının səbəbi inandırıcı deyil. Dünyada "pandemiyaya" görə sərhədləri bağlı olan ölkə qalmayıb. Müxtəlif versiyalar var, əsasən də təhlükəsizliklə bağlı məsələlər var. Bunları anlamaq olar. Amma Azərbaycan güclü dövlətdir və öz təhlükəsizliyini açıq sərhədlərlə də təmin etməyi bacaracaq. Növbəti dəfə quru sərhədlərinin açılmaması həm əhalidə, həm də biznesdə narazılıq yaradacaq. Bütün makroiqtisadi göstəricilərdən də görünür ki, quru sərhədlərinin bağlı olması Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərir. Turist cəlb etmək istəyən ölkə quru sərhədlərini bağlı saxlaya bilməz. Həmçinin, sərhədyanı ticarətin Azərbaycan iqtisadiyyatına müsbət təsirləri var idi. Ümid var ki, növbəti ilin aprelin 2-dən bu problem tarixə qovuşacaq və quru sərhədləri açılacaq.

***Anar Kəlbiyev***

# Mustafa Abbasbəyli də "yolun sonuna" yaxınlaşır

## Dövlət Məşğulluq Agentliyindən səngiməyən şikayətlər qurumun rəhbərliyində dəyişikliyi anons edir

***Ötən sayımızda bəhs etdiyimiz kimi, 2024-cü ilin fevral ayının 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkinin ardından isə yeni hökumət kabineti formalaşdırılacaq. Həmin kabinetdə indiki bəzi iri məmurların yer almayacağı gözlənilir. Məhz bu məqamın artıq indidən hökumət dəhlizlərində müəyyən həyəcan yaratdığını söyləmək mümkündür.***

Artıq mediada və ictimaiyyət arasında növbədənkənar prezident seçkilərinin ardından formalaşdırılacaq yeni hökumət kabinetində hansı məmurların yer almayacağına dair müzakirələr gedir. Digər tərəfdən isə hökumətin yeni tərkibi ilə yanaşı, uzun müddətdir həm KİV-in, həm də cəmiyyətin tənqid hədəfində olan bəzi qurumların rəhbərliyində də dəyişikliklər gözlənildiyinə dair iddialar səslənir. Belə dövlət qurumlarının ilk sıralarında isə Dövlət Məşğulluq Agentliyi gəlir. Agentliyin xüsusilə özünəməşğulluq layihəsinin icrası istiqamətində öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirmədiyi, çoxsaylı şikayətlərə yol açdığı vurğulanır. Söhbət ilk növbədə həmin layihə çərçivəsində vətəndaşlara verilən malqoyunun xəstə, yararsız olmasından gedir. Bu yaxınlarda eyniməzmunlu şikayətdə bildirilirdi ki, Cəlilabadda bir qrup şəxsə 20 baş qoyun və bir törədici qoç verilib.

Lakin həmin şəxslər sözügedən Agentlik tərəfindən onlara təqdim edilən heyvanlardan narazıdırlar. Belə ki, təqdim edilən heyvanların əksəriyyəti xəstədir.Fermerlərdən biri iddia edib ki, ona verilən qoyunların bir ədədi üçün dövlət qiyməti olaraq 400 manata imza atdırılıb. Amma qoyunların ikisi təqdim edilən yerdə ölüb. Biri isə halsız vəziyyətdədir. Digər heyvanlar da eyni vəziyyətə düşürlər.

İnternet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, bənzər narazılıqların baş alıb getdiyini aydın şəkildə görəsən. Hərçənd Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Mustafa Abbasbəyli və onun ətrafı məlum şikayətlərlə, baş verən heyvan ölümləri ilə bağlı elə özünəməşğulluq layihəsinə cəlb edilən şəxsləri günahlandırır. Abbasbəyli ilə bağlı narazılıqlar yalnız bəhs etdiyimiz mövzu ilə kifayətlənmir. Belə ki, rayonlarda özünəməşğulluq proqramına qoşulmaq istəyənlərin süründürməçiliklə üzləşdiyinə dair şikayətlərin də ardı arası kəsilmir.

Daha bir vacib məqam: dövlət özünəməşğulluq proqramına külli miqdarda vəsait ayırdığı halda hələ də regionlarda işsizliyin ciddi problem olaraq qalması, insanların rayon və kəndləri boşaldaraq Bakıya axın etməsi haqqında danışdığımız layihənin effektivliyi, ona ayrılan pulların təyinatı üzrə, səmərəli şəkildə xərclənməsinə dair suallar yaradır. Uzağa getməyək, bu ilin noyabrın 4-də Milli Məclisdə Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin birgə iclasında deputat Jalə Əliyeva da deyib ki, regionlarda işsizlik böyük bir problemə çevrilir. Bunu deputat Jalə Əliyeva deyib.

"Rayonlarda iş yerlərinin açılması vacibdir. Bölgələrin deputatları ən çox bu işsizliklə bağlı müraciətlərlə qarşılaşır. Dünya dəyişib. İnsanlar artıq daha təkmil yaşamaq istəyir. İş yerləri dardır, demək olar ki, yoxdur. Artıq rayon icra hakimiyyətləri vətəndaşa iş təklif etməsi sıfıra bərabər olub. Böyük bir problemlə qarşılaşırıq", - deputat əlavə edib.





Elə Dövlət Statistika Komitəsinin açıqlamasına görə, Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınan işsiz şəxslərin sayı 247 min 430 nəfər olub. Hələ onu demirik ki, yerli mediada bu Agentliyin yerli şöbələrinə müraciət edərək işsiz kimi qeydiyyata düşmək istəyənlərin bir çoxlarının bu və ya digər formada get-gələ salındığına dair giley-güzarlar da bəs deyincədir.

Lakin hətta rəsmi statistikadan da göründüyü kimi, işsizliklə bağlı problemlərin miqyası kifayət düşündürücüdür. Elə isə Dövlət Məşğulluq Agentliyinin fəaliyyətini necə müsbət qiymətləndirmək olar?

Ötən il deputat Razi Nurullayev mətbuata açıqlamasında demişdi ki, "Dövlət Məşğulluq Agentliyi insanları iş yerlərinə göndərir, vətəndaş gedib görür ki, iki aydır, artıq həmin iş yeri tutulub. Agentlik isə qeydə alır ki, guya fiankəs işlə təmin olundu. Agentliyin verdiyi "1000 nəfər işə düzəlib" statistikasının 900 nəfəri yalandır. Onlar işlə təmin olunmayıblar, sadəcə, adlarının qarşısına işarə qoyublar ki, guya "təmin olundu"".

Bir sözlə, adıçəkilən Agentliyin effektiv fəaliyyətindən danışmaq çətin məsələdir. Belədə Mustafa Abbasbəylinin də yaxın vaxtlarda vəzifəsini itirəcək məmurlar arasında göstərilməsinə təəccüblənməmək lazımdır.

***Toğrul Əliyev***

# Baş nazirdən qərar: TƏBİB-in səlahiyyətləri artırıldı



***Epidemik göstərişlərə görə profilaktik peyvəndləmə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən aparılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası"nda, "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə"də və "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında Qərar imzalayıb.

Belə ki, dəyişikliyə əsasən, yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə əhali arasında immunsəviyyənin yüksəldilməsi üçün immunoprofilaktikanı təmin edən Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin, Səhiyyə Nazirliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və idarəetmə orqanlarının müvafiq strukturları tərəfindən profilaktik peyvəndlər aparılır.

Əvvəlki qaydaya görə, bu istiqamətdə profilaktik peyvəndləmə aparmaq səlahiyyəti olan qurumların siyahısında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi də vardı. Dəyişiklikdən sonra bu səlahiyyət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən alınaraq TƏBİB-ə verilib.

# MSK onların səlahiyyətli nümayəndələrini qeydə aldı



***Mərkəzi Seçki Komissiyası (MSK) prezidentliyə namizədliyi bu gün təsdiqlənən daha 6 şəxsin səlahiyyətli nümayəndələrini qeydə alıb.***

"Unikal" xəbər verir ki, bu barədə MSK-nın iclasında məlumat verilib.

Müzakirələrdən sonra namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc və Fuad Əliyev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayin səlahiyyətli nümayəndələrini qeydə alıb.

# Yeni birgə hərbi istehsal müəssisələri yaradılacaq

***Azərbaycan yeni birgə hərbi istehsal müəssisələrinin yaradılmasını davam etdirəcək.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev "Azərbaycan-Türkiyə İnvestisiya Forumu"nun panel müzakirələrində deyib.

O bildirib ki, gələn ildən Azərbaycan Müdafiə Sənayesi Nazirliyi diqqətini yeni müasir istehsal infrastrukturunun yaradılmasına, eləcə də istehsal prosesinə yeni texnologiyaların tətbiqinə, mövcud istehsalat sahələrinin müasirləşdirilməsinə yönəldəcək.

"Özəl sektorun bu sahədə iştirakının dəstəklənməsi, özəl sektor və dövlət arasında tərəfdaşlıqların qurulması, sərmayələrin cəlb edilməsi, birgə müəssisələrin və birgə istehsal sahələrinin yaradılması müvafiq hüquqi və qanunverici bazanın formalaşdırılması, qarşıdakı fəaliyyətimizin mühüm bir hissəsi olacaq" - nazir qeyd edib.

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 9





## Yuli Qusmana "Şərəf" ordeni təqdim edildi

***Mədəniyyət Nazirliyində Azərbaycanın Xalq artisti, Rusiyanın məşhur teatr və kino rejissoru, teleaparıcı, ictimai xadim, əslən Bakıdan olan Yuli Qusmana "Şərəf" ordeni təqdim edilib.***

Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyindən bildirilib.

Xatırladaq ki, Yuli Qusman Prezident İlham Əliyevin 7 avqust 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında böyük xidmətlərinə görə bu ali ordenlə təltif olunub.

Yuli Qusman çıxış edərək sənətinə verilən yüksək dəyərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

## Mühafizə orderlərinin verilmə müddəti uzadılır

***Məişət zorakılığından zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi müddəti artırılır.***

"Unikal" xəbər verir ki, bunula bağlı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilir.

Qanunun qısamüddətli və uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar 11-ci və 12-ci maddələrində qısamüddətli mühafizə orderinin müddətinin beynəlxalq təcrübəyə əsaslanaraq 60 günədək artırılması təklif olunur.

Eyni zamanda qısamüddətli mühafizə orderinin verilməməsinə görə məsuliyyətin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində də dəyişiklik edilməsi nəzərdə tutulur.

## Bu halda uşaq valideynlərdən alınacaq



***Uşaq üçün birbaşa təhlükə olarsa uşaq valideynlərdən alınacaq.***

"Unikal" xəbər verir ki, bunula bağlı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda dəyişiklik edilir.

Layihəyə əsasən, məişət zorakılığından zərər çəkmiş yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, o cümlədən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72-ci maddəsi (Uşağın sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda uşağın valideynlərdən (onları əvəz edən şəxslərdən) alınması) ilə müəyyən edilmiş əsaslar olduqda, uşağın valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq alınması ilə bağlı tədbirlər görmək dövlətin vəzifələri sırasına daxil edilir.

Eyni zamanda layihəyə əsasən, cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələri sırasından ailə münasibətlərinin bərpa olunmasına kömək göstərmək çıxarılır.

# İbrahim Mehdiyev bəzi mülklərini və obyektlərini satıb

## Sabiqlərin izi ilə: Yasamalın keçmiş icra başçısı hazırda nə işlə məşğuldur?

***"Unikal" qəzeti ötən sayından etibarən keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcinə başlayır. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sonuncu dəfə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı olmuş İbrahim Mehdiyev haqqındadır.***

Hazırda 77 yaşı olan İ.Mehdiyev öncə Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı (2000-2006), sonra isə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı (2006-2017) postlarını tutub. Onun 17 illik icra başçısı karyerası Protez-Ortopedik Bərpa Mərkəzinin direktoru postunun ardınca start götürmüşdü.



Mehdiyev vəzifədə olarkən haqqında ən çox şikayət edilən icra başçılarından idi. Onun rəhbərliyi dövründə Yasamalda yaşıllıqların məhvi, əvəzində isə tikinti və ticarət obyektlərinin başıpozuq şəkildə inşası geniş miqyas almışdı. Elə adıçəkilən icra başçısının özü də fəaliyyəti dövründə inanılmaz sərvət sahibinə çevrilmişdi.

İ.Mehdiyevin cəzalandırılmasına isə Hacı Cavad məscidinin sökülməsi təkan verdi. Prezidentin ictimai-siyasi məsələlər üzrə sabiq köməkçisi Əli Həsənov həmin vaxt dövlət başçısının "tapşırığının əksinə olaraq", yeni binanın tikintisi başa çatmamış Hacı Cavad məscidinin sökülməsi barədə "özbaşına qərar" verildiyini demişdi. "Prezident İlham Əliyev məsələ barədə məlumat aldıqdan dərhal sonra həmin vəzifəli şəxslərin ciddi şəkildə cəzalandırılması barədə göstəriş vermişdir", - o, bəyan etmişdi. Eyni zamanda diqqətə çatdırmışdı ki, bu işin əsas günahkarı olan rayon İcra Hakimiyyətinin başçısı artıq tutduğu vəzifədən azad edilib.

Yasamalın sabiq rəhbərinin 17 illik icra başçısı karyerası bitdikdən sonra onun həmin müddətdə kifayət qədər böyük sərvət sahibinə çevrildiyi, oliqarxlaşdığı barədə məlumatlar daha da intensivləşdi. Ölkə KİV-nin iddiasına görə, İ.Mehdiyevin təkcə Bakıda 10-dan artıq milyonluq obyektləri var, İsveçrədə isə böyük əmlaka sahibir.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışarkən köhnə maşın bazarının arxasında böyük torpaq sahəsini ələ keçirdiyi deyilən Mehdiyevin sözügedən rayonda - Bakı şəhəri, Sarayevo küç, 1 (Əhmədli metrosunun yanı) Soliton Mağazalar Şəbəkəsinin yerləşdiyi binaya, "Baku Electronics MMC-nin Əhmədli filialının binasına, Əhmədlidə bir neçə yerdə məşhur hamamlara sahib olduğu deyilib. "Həmçinin onun Xətai rayonunda bir neçə yaşayış binasında mənzilləri və bahalı villaları da var... Yasamalda da bir sıra iri milyonluq obyektlərin sahibidir. Belə ki, İ.Mehdiyev bu rayonda, eləcə də Əhmədlidə bir neçə uşaq bağçasına, diş klinikasına, villalara, boş torpaq sahələrinə məxsusdur. "Eklint restoranlar şəbəkəsi, "Volvo şirkətinin binası da ona məxsusdur. Eks icra başçısının mülkləri bununla bitmir. İ.Mehdiyevin Nərimanov rayonunda metronun yaxınlığında iri kompüter mağazası da var" deyə sabiq başçı 2017-ci ildə vəzifəsini itirdikdən sonra ölkə mətbuatı yazıb.

O da iddia edilib ki, İ.Mehdiyevin oğlu Həsən Mehdiyev İsveçrədə yaşayır. O atasının pullarını bu ölkənin banklarında qoruyur və orada böyük biznes şəbəkəsinə malikdir. Bununla belə Bakıda məşhur "Unipark şirkətinin də ortaq şəriki Həsən Mehdiyevdir.

Sabiq başçı bütün bu iddialara münasibət bildirməyib.

2018-ci ildə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Baş Prokurorluğun birgə məlumatında qeyd edilirdi ki, aparılmış araşdırma nəticəsində "İnşaat Konstruksiyaları" MMC-nin vəzifəli şəxsləri tərəfindən Şəhərsalma və Tikinti Məcəlləsinin müddəaları pozulmaqla sözügedən ünvanda mövcud olan yaşayış və qeyri-yaşayış bina və qurğularının sökülmə işlərinin təşkili layihəsi hazırlanmadan və sökülmə işlərinin aparılmasına dair icazə alınmadan 46 sayda mənzil və 3 qeyri-yaşayış obyektinin söküldüyü müəyyən edilərək bu barədə toplanmış materiallar aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib. Həmin vaxt media adıçəkilən tikinti şirkətinin məhz İ.Mehdiyevə məxsus olduğunu yazmışdı.

Lakin sabiq başçı "İnşaat Konstruksiyaları" MMC-nin ona məxsus olması barədə yayılan məlumatın həqiqəti əks etdirmədiyini demiş və belə bir şirkətin varlığı barədə məlumatsız olduğunu demişdi.

Hazırda İ.Mehdiyev işsizdir, o, Bakının müxtəlif yerlərindəki biznes obyektlərinin fəaliyyətinə nəzarət edir. Həmin obyektlərin əksəriyyəti eks-başçının yaxınları tərəfindən idarə olunur. Həmçinin Mehdiyevin daşınmaz əmlaklarının, eləcə də ticarət obyektlərinin bəzilərini satdığına dair də xəbərlər dolaşır.

Əldə etdiyimiz məlumata görə, İbrahim müəllim işsiz qaldıqdan sonra səhhətində müəyyən problemlər yaşayır. Onun ürəyində və gözündə problemlər olduğu deyilir.

***Toğrul Əliyev***

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:32 PM Page 10



# "Şərurlu İsfəndiyar"ın adı ətrafında yeni qalmaqal

## Tikinti maqnatının oğlu Dövlət Xidmətini niyə məhkəməyə verib?

Tikinti maqnatı kimi tanınan İsfəndiyar Axundovun (Şərurlu İsfəndiyar) oğlu Allahverdi Axundovla İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Abşeron rayon Ərazi İdarəsi arasında qalmaqal yaranıb.

Qaynarinfo-nun yola salmaq üzrə olduğumuz həftə yaydığı məlumata görə, adıçəkilən idarə Allahverdi Axundovu İnzibati Xətalar Məcəlləsinin 247.1-ci (Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi) maddəsi ilə cərimələyib.



Bu maddədə fiziki şəxslərin 300 manat, hüquqi şəxslərin isə 3000 manat məbləğində cərimə edilməsi nəzərdə tutulur. İdarənin Allahverdi Axundovu hansı qismdə və hansı məbləğdə cərimələdiyi məlum deyil.

Məlum olan odur ki, iş adamının oğlu qərarla razılaşmayaraq, şikayət ərizəsi ilə məhkəməyə müraciət edib. Onun şikayətinə Nərimanov Rayon Məhkəməsində baxılacaq. Hafiz Kamranov iş üzrə hakim təyin edilib.

Bir daha vurğulayaq ki, İsfəndiyar Axundov Azərbaycanın tikinti sektorunda tanınan isimlərdəndir. Onun sahibi olduğu ”Şərur” Mənzil-Tikinti Kooperativi (MTK) Bakıda yüzlərlə yaşayış binası inşa edib.

İsfəndiyar Axundov həm də qalmaqallı iş adamı kimi tanınır. Sonuncu dəfə iş adamı 5 milyonluq borc qalmaqalı ilə gündəmə gəlmişdi. Söhbət ”Zaminbank”dan götürülmüş kreditdən gedir. Bu məsələdə İsfəndiyar Axundov bankın rəhbərliyi tərəfindən aldadıldığını iddia edirdi.

Allahverdi Axundova gəlincə, o, bir neçə il əvvəl dəyəri 650 minlik ”Lamborghini Gallardo” avtomobili ilə gündəmə gəlmişdi. Həmin vaxt İsfəndiyar Axundov oğlunun belə maşınının olmadığını bildirsə də, media israrla avtomobilin Allahverdi Axundova məxsus olduğunu yazırdı. Bu iddia Allahverdi Axundovun sosial şəbəkələrdə ”My new car, lambo#aventador” qeydi ilə həmin avtomobillə fotosunu paylaşması ilə əsaslandırılırdı.

”Unikal” onu da yada salır ki, ”Şərurlu İsfəndiyar”ın məlum fakta reaksiyası belə olmuşdu: “Hə, nə olsun? Mənim vertolyotum da var. Bunun kimə nə aidiyyəti var? Həmin maşın oğlumundur. Mənim oğlum neyləyib? Şəhərdə vertolyot sürməyib kig Maşın sürüb də. Başqa nə iş görüb?”

Şübhəsiz ki, ortada incə bir məqam var: İsfəndiyar Axundov məmur deyil, tikinti maqnatıdır. Elə bu səbəbdən də onun övladlarının dəbdəbəli həyat yaşaması ilk baxışdan ciddi müzakirə mövzusu olmamalıdır. Lakin onu da unutmaq olmaz ki, adıçəkilən iş adamının adı tikinti sektorundakı bir sıra qalmaqallarda hallanır. Son olaraq bu ilin yayında ölkə mediası İsfəndiyar Axundov və qardaşı oğlu Eldəniz Axundovun məhkəməyə verildiyini yazıb. Bildirilib ki, iddiaçı Qasım İbrahimov adlı şəxsdir. O, adıçəkilən şəxslərlə paralel ”HOM-PAŞ Prestij” Mənzil-Tikinti Kooperativi (MTK) barəsində də iddia qaldırıb. ”HOM-PAŞ Prestij” MKT türk iş adamı Hikmət Yiğitdöl və azərbaycanlı sahibkar Qabil Əliyevə məxsus olub. Sonradan aydınlaşıb ki, şirkətin inşa etdiyi binada bir mənzil bir neçə nəfərə satılıb. ”Bundan sonra Hikmət Yığıtdöl həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib. Mediada gedən məlumatlardan aydın olur ki, Hikmət Yığıtdöl baş verənlərdə şəriki Qabil Əliyevi ittiham edir. O, Qabil Əliyevin mənzilləri bir neçə nəfərə satıb qaçdığını bildirib. Bundan sonra ”HOM-PAŞ Prestij” MTK-nın mənzilləri və mağazaları ”Şərurlu İsfəndiyar”a verilib. Hətta tikinti maqnatı şirkətin üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədiyinə görə məhkəməyə də müraciət edib və prosesi udub. Hazırda ”HOM-PAŞ Prestij” MTK İsfəndiyar Axundovun nəzarətindədir” deyə yerli KİV yazıb.

”Şərurlu İsfəndiyar” isə haqqındakı bir çox qalmaqallı xəbərlər kimi buna da hər hansı reaksiya verməyib.

Tikinti maqnatının və ona yaxın şəxslərin dövlət qurumları tərəfindən cərimələnməsi də ilk dəfə baş vermir. Məsələn, 2021-ci ildə onun şirkəti ətrafı zibilləməkdə ittiham olunub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi şirkətə qarşı cərimə cəzası tətbiqi üçün protokol hazırlayaraq, məhkəməyə göndərib. Belə ki, “Şərur” Mənzil Tikinti Kooperativi (MTK) haqqında İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması qaydalarının pozulması, tullantıları yandırarkən ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsilə inzibati xəta protokolu tərtib olunub.

11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin nümayəndələri iddia ediblər ki, “Şərur” MTK-nın paytaxtın Xətai rayonu, Lütfi-zadə (keçmiş Telnov) küçəsində tikdiyi yaşayış binaların ətrafında antisanitariya vəziyyəti hökm sürüb. Toplanmış məişət tullantıları binanın arxa tərəfində qalaqlanıb.

İndi isə cərimələnən tikinti maqnatının oğludur və Allahverdi Axundovun həmin cərimələnmə faktı ilə bağlı dövlət qurumunu məhkəməyə verməsinin necə nəticələnəcəyini yaxın vaxtlarda biləcəyik.

***Sənan Mirzə***

# Azərbaycanda qurumlararası əlaqələndirmə mexanizmi yaradılır



***Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizmi yaradılır.***

”Unikal” xəbər verir ki, bunula bağlı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilir.

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının müvafiq bəndinin icrası məqsədi ilə yerlərdə yaradılmış “Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrup”larının fəaliyyətini tənzimləyən vahid hüquq normaları mövcud deyil.

“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın 12.1.2-ci bəndinin tələblərindən irəli gələrək, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması məqsədilə mövcud Qanuna yeni 19-1-ci maddənin əlavə edilməsi təklif olunur.

# Baş Prokurorluq bir sıra qurumlara xəbərdarlıq etdi




***Baş Prokurorluq ekoloji hüquqpozuntularına qarşı mübarizəni davam etdirərək həm pozuntulara yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə yanaşı belə pozuntulara şərait yaradan halların vaxtında müəyyən edilərək aradan qaldırılması istiqamətində tədbirlər görür.***

Bu barədə ”Unikal”a Baş Prokurorluqdan məlumat verilib. Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində aparılmış araşdırmaların nəticələrinin ümumiləşdirilməsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti ilə birgə ekoloji pozuntuların təhlil edilməsi ilə müəyyən edilmişdir ki, yaşıllıqların uçotu və qeydiyyatı, həmçinin reyestrin formalaşdırılması və aparılması sahəsində yerli icra və özünü idarəetmə orqanlarının fəaliyyəti lazimi səviyyədə təşkil edilmir.

Belə ki, bir sıra hallarda yerli və özünüidarətmə orqanları yaşıllıqların uçot və monitorinqini apararaq bu barədə məlumatları yaşıllıqların kadastrınının aparılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim etməməklə ekoloji hüquqpozuntularının törədilməsinə şərait yaratmışlar.

Yaşıllıqların mühafizəsi sahəsində yol verdikləri qanun pozuntularından çəkinməmələri barədə bir sıra yerli qurumlara rəsmi xəbərdarlıq edilmişdir.

# Bakı məktəblərində buraxılış fənləri üzrə monitorinq aparıldı

***Bakı Şəhəri üzrə Təhsil İdarəsi III, VI, VII, VIII siniflərdə bir dəfə və IX siniflərdə isə dörd dəfə olmaqla buraxılış fənləri üzrə monitorinqlər aparıb.***

Bu barədə ”Unikal”a idarədən məlumat verilib.

Monitorinq nəticələri təhsil müəssisələrinə həm bal, həm də məzmun təhlili olaraq təqdim olunub.

Buraxılış fənləri üzrə keçirilən monitorinqlərin əsas məqsədi proqram materiallarının mənimsənilmə göstəricilərinin müəyyənləşdirilməsindən ibarətdir.

## Ziyarətgahlarda ianələrin toplanması ilə bağlı qaydalar hazırlanır



***"Dini etiqad azadlığı haqqında" qanuna edilmiş düzəlişdə qeyd olunmuşdu ki, ziyarətgahlarda ianələrin toplanması, xərclənməsi barədə xüsusi qaydalar qəbul olunmalıdır. Həmin xüsusi qaydalar üzərində ekspertlər tərəfindən işlər davam etdirilir.***

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bununla bağlı müxtəlif ölkələrin təcrübələri öyrənilir və ianələr haqqında qaydalar qüvvəyə mindikdən sonra cəmiyyətə məlumat veriləcək.

O, həmçinin ianələrin verilməsində elektron yeniliklərlə bağlı məsələyə toxunaraq qeyd edib ki, burada söhbət verilən ianənin hansı istiqamətdə xərclənməsində şəffaflığın təmin edilməsi ilə bağlıdır:

"Nəzərdə tutulur ki, ianə toplandıqdan və həmin ziyarətgah öz xərclərini çıxdıqdan sonra toplanmış ianələri internet üzərindən açıq şəkildə göstərsin. Daha sonra ayrı-ayrı icmaların və ya öz təşəbbüsləri ilə müxtəlif layihələr tərtib edərək hansı istiqamətdə xərclənməsinin şəffaflığını təmin etsinlər. Bu da qanundan irəli gəlir. Hazırlanmaqda olan xüsusi qaydalar isə Nazirlər Kabineti tərəfindən təsdiq edildikdən sonra tətbiqi də öz həllini tapacaq".

## Nazir müavini son illərdə tibbi tullantıların artmasının səbəbini açıqlayıb

***"Tibbi tullantıların son illərdə aktuallaşması COVID-19 pandemiyası ilə bağlı olub".***



Bunu səhiyyə nazirinin müavini Nadir Zeynalov Milli Məclisdə "Tibbi tullantıların idarə olunması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

O bildirib ki, tibbin sürətli inkişafı, texnoloji inkişaf, insanların tibbi xidmətlərə əlçatanlığının artması müvafiq olaraq tibbi tullantıların artmasına da gətirib çıxarır: "Dünya təcrübəsində tibbi tullantıların idarə edilməsinə yanaşma müxtəlifdir. İnkişaf etmiş ölkələrdə tibbi tullantıların idarə edilməsi qənaətbəxş, kasıb ölkələrdə isə qeyri-qənaətbəxşdir. Bizim ölkəmizdə tibbi tullantıların idarə edilməsinin hüquqi bazası mövcuddur. Bunlardan əsası Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydalardır. Eyni zamanda, onu qeyd etmək lazımdır ki, ölkəmizdə tibbi tullantıların idarə olunması həmin bu qaydalarla tənzimlənir və bu tələblərə görə tullantıların idarə edilməsi iki əsas mərhələyə bölünə bilər. Müəssisədaxili və müəssisədənkənar mərhələ, birinciyə tullantıların toplanması və çeşidlənməsi, ikinciyə isə daşınma və utilizasiya daxildir. Tullantıların daşınması və utilizasiyası fərqli məsrəf tələb edir. Məsrəf çox olmasın deyə tullantılar ümumi olaraq deyil, çeşidlənmiş şəkildə utilizasiya olunur".

Nazir müavini qeyd edib ki, tibbi tullantıların daşınması ilə yalnız müvafiq lisenziyası olan şirkətlər məşğul ola bilər: "Bunun üçün ayrılan nəqliyyat vasitələri başqa məqsədlər üçün istifadə edilməməlidir".


### ELAN

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Nəsimi rayon İcra Şöbəsi. Hərrac 12.01.2024-cü il tarixdə saat 15:00-da növbəti-lə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 35/01 LOT üzrə Hüseynov Ceyhun Sabir oğluna məxsus "Porsche Cayenne" minik markalı 90 LX 911 dövlət qeydiyyat nişanlı avtomobilin (buraxılış ili 2005, rəngi qara)ilkin satış qiyməti - 11.200 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Kapital Bank" ASC kod 200048; VÖEN 9900003611; m/h AZ37NABZ01350100000000001944; S.W.İ.F.T AIIBAZ2XXXX) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda müddətində beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: mob: (051)693-27-15 elektron ünvan office@e-herracmerkezi.az; <https://www.facebook.co> m/


# Bakıdakı 35-50 milyonluq bağ evlərinin sirri

## Həftənin sualı: ölkədə rəsmi milyonçu yoxdursa, onları kimlər tikir, kimlər satın alır?



***Bakıda bağ evlərinə tələbatın daha yüksək olduğu ərazilər açıqlanıb. Rieltor Mülkədar Rüstəmov iqtisadiyyat.az-a açıqlamasında bildirib ki, hazırda şəhərətrafı ərazilər olaraq Mərdəkan, Şüvəlan, Nardaran, Buzovna, Bilgəh qəsəbələrində bağ evlərinə tələbat daha yüksəkdir.***

Onun sözlərinə görə, bu ərazilərdə yerləşən bağ evlərinin qiyməti 35-50 milyon manat civarında dəyişir. Şəhərin özündə isə Badamdar qəsəbəsində yerləşən bağ evlərinə tələbat daha çoxdur: "Badamdarda Birinci və İkinci massivdə yerləşən bağ evlərində torpağın 1 sotunun qiyməti 200 000 manat civarındadır. Villaların qiyməti isə 25-30 milyon manat təşkil edir. Yəni bu ərazidə minimum məbləğ 2 milyon manatdan başlayır. Bundan başqa, bahalı bağ evləri şəhərin mərkəzi istiqamətində Teymur Əliyev küçəsində yerləşən "Milyonerlər məhəlləsi"ndədir. Eyni zamanda Məmməd Araz küçəsi, Həsən Əliyev küçəsi, İnqilab İsmayılov küçəsinin kəsişməsində də bahalı evlər var".

Rieltor vurğulayıb ki, son zamanlar Masazır və Saray qəsəbələrində bağ evləri ilə bağlı aktivlik müşahidə olunur: "Xüsusən də Masazırda sıravi vətəndaşlarla yanaşı, bəzi deputatların da mülkləri var. Masazırda ən bahalı bağ evləri 1 milyon manatdan başlayır. Ümumilikdə isə burada çox da bahalı bağ evləri mövcud deyil".

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı isə bağ evlərinə tələbatın az olduğunu açıqlayıb. Onun sözlərinə görə, bağ evləri satışa çıxarılandan sonra ən azı 1 il ərzində satılır. Hətta bəzi hallarda bahalı bağ evlərini 2-3 ildən sonra satmaq mümkün olur: "Ümumilikdə, bu gün Bakı və şəhərətrafı ərazilərdə, Abşeron yarımadasının müxtəlif ərazilərində kifayət qədər bahalı olan dənizkənarı bağ evlərinə rast gəlmək mümkündür. Bu bağ evlərinin qiyməti 5-15 milyon manat və daha yuxarı məbləği əhatə edir. Bağ evinin yerləşdiyi torpaq sahəsinin qiymətinin yüksək olması, eyni zamanda bağ evinin özünəməxsus özəllikləri qiymətin təyin olunmasında cidd rol oynayır".

Mövzunun maraqlı tərəfi də var. Məsələ burasındadır ki, Azərbaycanda rəsmi milyonçu yoxdur. Bir müddət öncə həmin mövzu ilə bağlı danışan iqtisadçı Natiq Cəfərli bildirmişdi ki, bunun səbəbi bizdə gəlir deklarasiyası anlayışının mövcud olmamasıdır (valyuta.az). Sitat: "Bir çox ölkələrdə illik gəlir deklarasiyası anlayışı var. Hətta başqa ölkələr bir yana, bizə qonşu olan Rusiyada gəlir deklarasiyası mövcuddur. Hər bir şəxs illik gəlir və xərclərlə bağlı, vergilərin miqdarı ilə bağlı gəlir deklarasiyası verir. Bu zaman da bəlli olur ki, ölkədə varlı insanların sayı nə qədərdir, ən çox vergi ödəyicisi kimdir... Bəlkə də Cənubi Qafqazda ən çox qeyri-rəsmi milyonçular bizdədir, amma bizdə rəsmi milyonçu yoxdur. Bizdən kasıb olan Ermənistanda belə 70-ə yaxın milyonçu var. Çünki orda gəlir deklarasiyası anlayışı var".

Bəzi ekspertlərin fikrincə isə Azərbaycanda əksər milyonçular əldə etdikləri sərvəti heç də qanuni yollarla qazanmayıblar. Buna görə də onlar rəsmən qeydiyyatdan keçməkdə maraqlı deyillər. "Bir anlıq təsəvvür edək ki, hansısa nazirin övladının, kürəkəninin, eyni qaydada icra başçılarının sərvətinin tərkibi və həcmi barədə cəmiyyətə rəsmi məlumat təqdim edilir. Və məlum olur ki, bunların heç normal biznesi də yoxdu. Amma necə bəyan olunsun ki, bu qədər sərvət rüşvət və korrupsiya ilə toplanıb... Yəni milyonçuların rəsmi siyahısı o ölkələrdə cəmiyyət üçün leqal olur ki, həmin ölkələrdə sərvət, mülkiyyət leqal yollarla qazanılır. İkinci səbəb odur ki, milyonçular leqallaşsa, gərək öz statuslarına və rəsmi bəyan edilən sərvətlərinə uyğun vergi ödəsinlər. Amma bu qruplar ən çox vergidən yayınanlardır" - deyə bildirilir.

Bütün bu rəylərin fonunda yenə də sual ortaya çıxır: ölkədə rəsmi milyonçu yoxdursa 5-15 milyon manatdan başlayıb 50 milyon manatadək qalxan bağ evlərini kimlər hansı vəsaitlər hesabına tikir, həmin bağ evləri satışa çıxarıldıqdan sonra isə onları yenə kimlər hansı pullar hesabına alırlar?! Məsələni aktuallaşdıran həm də odur ki, mövcud reallıq şəraitində söhbət eyni zamanda vergidən yayınma hallarının mümkünlüyündən gedir. Ona görə də vaxtilə deputat Vahid Əhmədovun da vurğuladığı kimi, "şəffaflığı təmin etmək, müəyyən qədər korrupsiyanın qarşısını almaq üçün deklarasiyanın həll edilməsi vacibdir".

***Toğrul Əliyev***

UNI-45_27 IYUl-QARA.qxd 12/21/2023 11:32 PM Page 12



**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Cinayət heç vaxt cəzasız qalmır!

## Salman Alıoğlu: "Ermənilərin insanlıq əleyhinə törətdiyi cinayətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır"

***Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi Ermənistan tərəfindən törədilmiş insanlıq əleyhinə cinayətləri də üzə çıxartdı. 44 günlük müharibədən sonra aparılmış iki günlük antiterror tədbirləri zamanı Azərbaycan xalqına qarşı soyqırım aktı törətmiş canilər ələ keçdi.***

Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədən Xaçaturyan Vaqif Çerkezoviç məhkəmənin qərarı ilə 15 il müddətinə azadlıqdan məhrum edildi. Onun məhkəməsi dövründə cinayət işi üzrə 59 nəfər zərərçəkmiş qismində tanındı. Zərərçəkmişlərin ifadəsindən də bəlli olur ki, Qarabağda baş verən ilk böyük faciə Meşəlidən başlayıb. Ermənilərin Meşəli kəndində törətdikləri qanlı qırğın nəticəsində burada yaşayan hər bir ailə itki ilə üzləşib, doğmalarını, əzizlərini itirib, evləri yandırılıb, salamat qalanlar kənddən didərgin salınıb. Təpədən dırnağadək silahlanmış erməni dəstələri gecə kəndi mühasirəyə alaraq səhər saat 7 radələrində hücuma keçiblər. Heç kəsə aman verilməyib, qadınları, qocaları, uşaqları diri-diri yandırıblar, üç ailə büsbütün məhv edilib. Faciənin şahidləri bildirirlər ki, kənd sakinlərinə divan tutan, onları başından güllələyən Vaqif Xaçaturyan olub.

İnsanlıq əleyhinə ən böyük cinayətin törədildiyi Meşəli sakini, zərərçəkmiş Allahverdiyev Camal həmin günün dəhşətini belə xatırlayır:

"Meşəli sakinləri bu vəhşiliyi gözləmirdilər. Bizim kəndin camaatı silahsız idi. Səhər açılar-açılmaz ermənilər gülləni başımıza yağış kimi yağdırdılar. Evlərimizə od vurub içərisində olan insanların bayıra çıxmasına aman vermədilər. Bizim kəndin sakinləri illərlə çörək kəsdikləri qonşularından, Badara sakinlərindən bu vəhşiliyi gözləmirdilər. Ermənilər mənim qardaşımı yandıraraq öldürdülər. Hadisə şahidləri bu faciəni törədənlər içində Vaqifin adını çəkirdilər. Deyirdilər ki, Vaqifin dəstəsi kəndə hücum edib. Xaçaturyan bizim yerləri, camaatı yaxşı tanıyırdı. Qardaşım Allahverdiyev Vidadi həmin hadisələrdə şəhid oldu. Körpə qardaşım qızı həlak oldu.



Meşəlidə törədilənlər insanlığa sığmayan əməllər idi. Dünyada belə müharibə cinayəti olmamışdı ki, ermənilər bu vəhşi əməlləri ilə yadda qaldılar".

Qeyd edək ki, ermənilərin əməlləri təkcə Meşəli ilə bitmir. 1988-1993-cü illərdə ermənilərin Qarabağda və Şərqi Zəngəzurda törətdikləri cinayətlər, Xocalı, Ağdaban, Qaradağlı soyqırımı təkcə azərbaycanlılara deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

Qarabağda törədilmiş insanlıq əleyhinə çoxsaylı soyqrım və cinayətlərin şahidi, jurnalist Salman Alıoğlu deyir ki, ermənilərin bu əməlləri beynəlxalq aləmə çatdırılmalıdır.

" Ermənilər tarix boyu Azərbaycan xalqına qarşı soyqırım aktları törədiblər. Mən Ağdaban, Xocalı, Meşəli soyqırımlarının canlı şahidiyəm. Xocalıda meşədə donmuş meyidləri, od vurulmuş evlərdə yandırılan körpələri, erməni vəhşiliyinin əlindən qaçan insanları görmüşəm. Biz bu vəhşiliyin qurbanı olan insanları Ağdama xəstəxanaya daşıyırdıq.Əminəm ki, Meşəli kimi Qarabağda törədilmiş digər insanlıq əleyhinə cinayət törədən canilər də yaxalanaraq boynu aşağı vəziyyətdə Bakıya gətiriləcək. Xocalıda əli dirsəyinə qədər azərbaycanlıların qanına bulaşmış Köçəryan da ədalət mühakiməsinə cəlb olunacaq. Bütün erməni cinayətkarlarının əməllərinə hüquqi qiymət veriləcək" deyə həmsöhbətimiz bildirir.

S. Alıoğlu deyir ki, Meşəli soyqırımında zərər çəkmiş insanların hər birinin sözləri beynəlxalq ictimaiyyətə çatdırılmalıdır: "Çox təəssüf ki, haqq səsimizi hələki dünyaya ürəyimiz istəyən kimi çatdıra bilmirik. Yaza bilən jurnalistlərin çoxunun xarici dil biliyi yoxdur, əcnəbi dil bilənlərin isə yazmaq, danışmaq qabiliyyəti yoxdur. Amma biz bu həqiqətləri dünyaya çatdırmalıyıq. Beynəlxalq ictimaiyyət bilməlidir ki, ermənilər Azərbaycan xalqına qarşı hansı vandal aktları törədiblər".

S. Alıoğlu onu da bildirib ki, torpaqlarımızı 30 ildən sonra işğaldan azad etməyimiz sayəsində Azərbaycan ermənilərin əsl simasını beynəlxalq ictimaiyyətə çatdırmaq imkanı qazanıb.

"Sağ olsun bizim Ali Baş Komandanımız, ordumuz ki, torpaqlarımız yağı tapdağından azad edildi. Biz artıq viran qoyulan yurdlarımızın, kütləvi məzarlıqların, məscidlərimizə, tarixi abidələrimizə, məzarlarımıza qarşı ermənilərin törətdikləri əməlləri dünyaya göstərə bilirik. Cinayətkarların qolu qandallı gətirilməsi isə onların törətdiyi əməllərə hüquqi qiymət verilməsi ilə yanaşı, şahid ifadələri sayəsində dünya onların törətdiyi vəhşiliklərdən xəbərdar olur.Biz haqq səsimizi qazandığımız zəfərdən sonra da dünyaya çatdırmağa davam etməliyik" deyə S. Alıoğlu bildirib.

Qeyd edək ki, Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədən Xaçaturyan Vaqif Çerkezoviç bu ilin iyulunda Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb. Onun üzv olduğu cinayətkar dəstə dekabr ayında Xocalı rayonunun Meşəli kəndində 25 nəfər azərbaycanlını öldürüb, 14 nəfərə xəsarət yetirib, 358 nəfər azərbaycanlını isə qanuni yaşadıqları yerdən didərgin salıblar. Ona qarşı Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı-hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma) və 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə-əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma) maddələri ilə ittiham elan olunub, barəsində həbs qətimkan tədbiri seçilib. Şahidlər və zərərçəkmişlər ona ömürlük cəza tələb etsələr də, Xaçaturyan 15 il müddətinə azadlıqdan məhrum edilib.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Səhiyyə Nazirliyi 37 tibb müəssisəsində monitorinq aparıb

***Azərbaycanda tibbin sürətli və texnoloji inkişafı tibbi tullantıların həcminin artmasına gətirib çıxarıb.***

"Unikal" xəbər verir ki, bunu səhiyyə nazirinin müavini Nadir Zeynalov Milli Məclisdə "Tibbi tullantıların idarə olunması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

O bildirib ki, bu gün bütün dünyada olduğu kimi Azərbaycanda da tibbi tullantıların idarəolunmasına diqqət artıb: "COVID-19 pandemiyasından sonra təhlükəli tibbi tullantılarla bağlı müəyyən tədbirlər görülüb".

Nadir Zeynalov qeyd edib ki, ilkin mərhələdə özəl və dövlət xəstəxanaları olmaqla 37 tibb müəssisəsində tibbi tullantıların idarəolunması ilə bağlı monitorinq aparılıb.

O qeyd edib ki, toplanan materiallar analiz olunub və təkliflər verilib: "Normativ hüquqi bazanın təkmilləşdirilməsi, bəzi dəyişikliklərin edilməsi zəruridir. Tələblərin yeni redaksiyada və daha müasir formada olması mütləqdir. Çünki əvvəlki tələblər 2007-ci ildə o vaxtın reallıqlarına uyğun idisə, artıq 16 il vaxt keçib, tələblər dəyişib. Yeni yanaşma təsnifatları var. Səhiyyə Nazirliyi bununla bağlı təkliflərini hazırlayıb və qısa zamanda aidiyyəti üzrə təqdim edəcək. Çeşidlənmədə müəyyən problemlər var və bunun da kökündə "necə edilməsi" məlumatsızlığı dayanır".

# "Tibbi tullantıların məhv edilməsində problem var" - Komitə sədri

***"Bu gün tibbi tullantıların toplanması, çeşidlənməsi, nəqli və məhv edilməsi sahəsində problem var".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentdə "Tibbi tullantıların idarə olunması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

O bildirib ki, bu gün cəmiyyəti ən çox narahat edən problem tullantı məsələsidir: "Bu gün tullantılar günbəgün artır. Həmçinin, tullantıların emal məsələsi də hələ öz həllini tapmayıb. Bakıda bu sahədə bir sıra işlər görülsə də, bölgələrdə hələ də problem qalıb. Ümumiyyətlə, xəstə ilə təmasda olan hər şey tibbi tullantı adlanır. Tibbi tullantılar epidemioloji nöqteyi-nəzərdən böyük təhlükəlidir. Çox sayda tullantının atılması milyardlarla patogen bakteriya və virusun mənbəyidir. Xəstəliklər düzgün idarə olunmasa, xəstəliklərin yayılmasına şərait yaratmış olar. Tullantılar arasında tibbi tullantılar xüsusi yer tutur. Digərləri ilə müqayisədə bunun təhlükəli və mənfi təsirləri çoxdur".

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:33 PM Page 13





## Qızıl Aypara Cəmiyyəti İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyir

***Azərbaycan Qızıl Aypara Cəmiyyəti Prezident İlham Əliyevin prezidentliyə namizədliyini dəstəklədiyini bəyan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov Cəmiyyətin növbədənkənar XXVI Baş Məclisində çıxışı zamanı deyib.

"Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası istiqamətində Prezident tərəfindən atılan addımlar uğurlu siyasətin parçasıdır", - o deyib.

Novruz Aslanov əhalinin rifah halının yüksəldilməsi məqsədilə görülən işləri də xüsusilə vurğulayıb.

## Bu il Azərbaycan-Türkiyə ticarət dövriyyəsi 7,2 milyard dollar olub

***Azərbaycan və Türkiyənin iqtisadi sahədə olan əməkdaşlığı ikitərəfli münasibətlə məhdudlaşmır, regional inkişafa və təhlükəsizliyə töhfə verən meqa layihələri də həyata keçiririk.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov dekabrın 21-də Bakıda keçirilən Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumunda deyib.

Onun sözlərinə görə, iki ölkə arasında olan münasibətlərin sıxlığı özünü rəqəmlərdə də əks etdirir.

"Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Bu ilin 11 ayında ölkələrimiz arasında ticarət dövriyyəsi 7,2 milyard dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz çoxdur. İxrac 52 faizdən çox artaraq 5,1 milyard dollar təşkil edib", - deyə nazir əlavə edib.

## Omikron ştamı yenidən mutasiyaya uğradı - Sürətlə yayılır

***Koronavirusun omikron ştamı yenidən mutasiyaya uğrayıb. Yeni variant JN.1 sürətlə yayılır.***

"Unikal" xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumat yayıb. JN1 dünyanın müxtəlif ölkələrində, o cümlədən Hindistan, Çin, Böyük Britaniya və ABŞ-də aşkarlanıb. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin məlumatına görə, bu növ infeksiyaların 15-29%-ni təşkil edir. JN.1 sünbül zülalında əlavə mutasiya hesabına sürətlə yayılır.

ÜST bəyan edib ki, omikronun yeni növü ictimaiyyət üçün böyük təhlükə yaratmır və mövcud vaksinlər də bu növ koronavirusdan qoruyur. Bununla belə, təşkilat qış aylarında koronavirus və digər infeksiyaların artması ehtimalı barədə xəbərdarlıq edib.

***Ağarza Elçinoğlu***

# Məişət zorakılığına görə cəzalar sərtləşdirilir

***Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə cəzalar sərtləşdirilir.***

"Unikal" xəbər verir ki, bununla bağlı Milli Məclisin Elm və təhsil komitəsinin iclasında İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklik müzakirəyə çıxarılıb.



Hazırda qüvvədə olan Məcəlləyə əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

Layihəyə əsasən, yuxarıda nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla altmış saatdan yüz saatadək ictimai işlər və ya on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

# "Ulu öndər Hüquq fakültəsini tamamilə xalqın fakültəsinə çevirdi" - Kamran Əliyev

***"Ulu öndər Hüquq fakültəsini tamamilə xalqın fakültəsinə çevirdi". "Unikal" xəbər verir ki, bu sözləri Baş prokuror Kamran Əliyev Bakı Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin 100 illik və Hüquq fakültəsinin 95 illik yubileylərinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq elmi konfransda deyib.***

Baş prokuror qeyd edib ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə Hüquq fakültəsinin əsas inkişaf istiqamətlərindən biri buraya tələbə kimi daxil olmaqda mövcud maneələrin aradan qaldırılması olmuşdur.

Ümummilli lider Heydər Əliyevə qədər Hüquq fakültəsinə daxil olanlar əsasən o dövrdə partiya və digər dövlət orqanlarının vəzifəli şəxslərinin övladları idisə, dahi lider bu bürokratik mexanizmi sındırdı, Hüquq fakültəsini tamamilə xalqın fakültəsinə çevirdi. Əsas məsələlərdən biri də, o dövrdə hüquq təhsili və elmi sahəsində çalışan alimlərin milliləşdirilməsi olmuşdur.



# Ağıllı insanlar niyə dağınıq olurlar?

***Ağıllı insanlar başqalarından fərqlidirlər, lakin bu insanlar haqqında cəmiyyətdə bir çox cəhətdən yanlış təsəvvürlər var. Məsələn, onların daha dağınıq olması.***

"Unikal" xəbər verir ki, dağınıqlıq dünyanın hər yerində baş verə bilər. Bu vəziyyət fərdlərin intellekt səviyyəsindən də asılı ola bilər. Müxtəlif tədqiqatlar göstərir ki, ağıllı insanlar adətən nizamsız fərdlər olurlar. Bunun arxasında bir çox səbəb var.



Ağıllı insanların evlərinin dağınıq olmasının səbəbləri:

- Bu insanlar çox vaxt çox işləyirlər və evlərini təmizləməyə və ya öz işlərini görməyə çox vaxtları olmur. Bu, yəqin ki, onların prioritetlərinin fərqli olması ilə bağlıdır. Vaxtlarını evin təşkili kimi gündəlik işlərə sərf etmək əvəzinə, peşəkar uğurlarını artırmaq üçün istifadə edirlər. Minnesota Universitetində tədqiqatçılar tərəfindən aparılan bir araşdırmada, səliqəsiz bir evin yaradıcılığı və yeniliyi təşviq edə biləcəyini qeyd olunub. Araşdırmaya görə, daha təmiz məkan sağlam qidalanmağa təşviq edir, qeyri-mütəşəkkil mühit isə insanlara yaradıcı düşünməyə imkan verir.

- Onlar öz aləmlərində kainatın varlığını düşünür və bu düşüncələrə qapıldıqları üçün başqa şeylərə fikir vermirlər. Məsələn, münasibətlər və yemək kimi fəaliyyətlər arxa plana keçir, çünki onlar çox zehni stimullaşdırma tələb edir. Bu insanlar yeni bilik axtarmaq üçün açıq havada daha çox vaxt keçirirlər və gördükləri hər şey onların növbəti böyük ideyasını işə sala bilər. Həmçinin, evin nizamsız olması onlara bu anda evdəki hər hansı bir şeyə əsaslanan ideyalar tapmağa kömək edə bilər.

- Ağıllı insanlar çox vaxt öz məqsədlərinə və istəklərinə o qədər diqqət yetirirlər ki, cəmiyyətin onlara necə baxacağından narahat olmurlar. Həmçinin, onlar başqaları tərəfindən qəbul olunmağın vecinə deyil, buna görə də öz qaydalarını yaradırlar.

***Gülayə Mecid***

# "Sumqayıt Kimya Sənaye Parkından ixracın dəyəri 3 milyard manatı keçib" - Nazir

***"Bu günə qədər İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkından 3,3 milyard manatlıq məhsul ixrac edilib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"Bu gün Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş, ölkəmizin ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkının yaradılmasından 12 il keçir. Bu müddətdə Parkın fəaliyyətindən əldə edilən nəticələr iqtisadiyyatımızın diversifikasiyasına, qeyri-neft sektorunun inkişafına, məşğulluğun artırılmasına, innovativ istehsalın təşkilinə və idxaldan asılılığın azaldılmasına əhəmiyyətli töhfələr verib. Bu günə qədər Parka 5,8 milyard manata yaxın investisiya qoyulub, buradan 9,5 milyard manat dəyərində satış həyata keçirilib, 6 600-dən çox daimi iş yeri yaradılıb", - deyə o qeyd edib.

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:33 PM Page 14



# Vətənini canından əziz bilənlər...

***Vətənimizin qeyrətli, mətin oğulları 44 günlük haqq savaşımızda doğma Azərbaycanın ərazi bütövlüyü uğrunda alovlardan, odlardan keçərək şanlı tarix yazdılar.***

Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində dünyaya göz açan Vüsal Kamran oğlu Kazımov da müqəddəs, ulu torpağın bağrına zəfər bayrağımızı sancanlar arasında idi. O, son damla qanını qədər yağı düşmənlə döyüşərək şəhidlik zirvəsinə ucalmaqla parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrildi. "Öncə Vətəndir!", - deyib ağır müharibə meydanında Uca Tanrıdan qəlbinə hakim kəsilən ilahi sevgisini Vətənə bir daha sübut edəndə şəhid baş leytenant Vüsal Kazımov ömrünün 30 ilini təzə yola salmışdı. Bəli, ömrü qıs oldu Vüsalın. Qaldı ki, təkcə keçdiyi rəşadətli döyüş yolunun hər səhifəsi fədakarlıqla, mərdliklə, həmçinin örnək olası qürur və heyrətlə doludur.

Vüsal cismən aramızdan gedib. İndi onun səpdiyi qəhrəmanlıq toxumu minlərlə ürəklərdə cücərir. Vətənini canından əziz tutmaqla onu alınmaz qalaya çevirən igidin həm də millətə, xalqa əziz iki qız övladı- Nuray və Aynur əmanət qalıb. Layiq görüldüyü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin, Füzulinin azadlığı uğrunda medalları göstərir ki,




Vüsal Kazımov hər daşına, torpağına vurulduğu doğma Azərbaycana gərəkli bir oğul kimi yaşamağı bacardı.

İndi üçüncü ildir Vüsal müqəddəs şəhidlik zirvəsindən bizlərə sarı boylanır. Bir an belə unudulmur, təkcə ailə üzvlər, qohumları yox, bütün Azərbaycan onunla qürur duyur, sevilə-sevilə könüllərdə bəslənilir. Doğma kəndində adına park, bulaq kompleksi adamların and yerinə çevrilib. Onu həsr olunmuş "Vüsal hicrandan acymış" sənədli film isə Vətənə oğul sevgisindən danışır. Bu günlər isə, yeni Vüsalın 33 yaşının tamamında onun doğma kəndində uyduğu torpaq ziyarət edildi, ehtiram əlaməti olaraq məzarı üstünə gül dəstələri qoyuldu.

Çıxışlar zamana bildirildi ki, Vüsal Vətənini, torpağını çox sevirdi. Tezliklə Qarabağın azadlığını istəyirdi. Bu yolda şirin canını fəda etməyə hazır idi. Etdi də... Məhz onun ölümü həyat qədər dəyərli oldu. 44 günlük haqq savaşımızda qələbə sevincini bizə yaşadan hər şəhidimiz Vətən səmasının əbədi parlaq günəşinə çevrildi. Vüsal da belə...

Məlumat üçün deyək ki, Vüsal Kazımov Lənkəran Dövlət Universitetində ali təhsil aldıqdan sonra ordu sıralarına gedib, burada tağım komandiri vəzifəsində Vətənini keşiyini çəkib. Hərbi xidməti üzüağ başa vuran Vətən sevdalısı evinə qayıdıb. 2018-ci ildə Lənkəran şəhər Gənclər və İdman İdarəsində işləməklə Vüsal qısa müddət ərzində Lənkəran şəhər Uşaq, Gənclər və İdman Məktəbinə direktor təyin edilib. Bir qayda olaraq erməni dığaların işğalçılıq siyasətinə qarşı barışmaz mövqe tutan Vüsal İkinci Qarabağ müharibəsi başlanan günü könülü döyüşən cəbhəyə yollanıb, Vətən torpaqlarının azad olunması uğrunda ölüm-dirim savaşına qatılıb. Füzuli, Qubadlı, Cəbrayıl, Şuşa döyüşlərində böyük hünər göstərib. Neçə-neçə ağır vuruşların qalibi olan baş leytenant Daşaltı və Şuşa əməliyyatlarında gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gəlib əlçatmaz, ünyetməz göylərə ucalıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Azərbaycanda "İlin vəkili" seçiləcək

***Azərbaycan Respublikası Vəkillər Kollegiyası (ARVK) Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, iclasda çıxış edən Kollegiyanın sədri Anar Bağırov Rəyasət Heyətinin cari fəaliyyəti barədə danışıb.

İclas gündəliyinə uyğun olaraq, "Azərbaycan vəkili" jurnalının yeni formatda buraxılışa verilməsi məsələsinə baxılıb və müsbət qərar qəbul edilib. Diqqətə çatdırılıb ki, baş redaktoru ARVK-nın sədri Anar Bağırov olan elmi-praktiki jurnal çapa hazırdır, redaksiya heyəti yerli və müxtəlif ölkələrin görkəmli hüquqşünas alimlərindən təşkil olunub, o cümlədən yeni beynəlxalq ISSN nömrəsi alınıb, eyni zamanda digər beynəlxalq qeydiyyatların alınması istiqamətində işlər gedir.

Həmçinin iclasda ARVK Rəyasət Heyəti Hüquqi Yardım və Tədris Mərkəzinin Əsasnaməsinə dəyişikliklərin edilməsi məsələsinə baxılıb və müsbət qərar çıxarılıb.

Bundan başqa, Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Azərbaycan nümayəndəliyi tərəfindən təşkil olunacaq IX "Avropa İnsan Hüquqları Məhkəməsi Simulyasiyası" layihəsinə dəstək göstərilməsi, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Pre-



zident İlham Əliyevin doğum gününə həsr edilən tələbələr arasında "Dəmir yumruq" hüquq sahəsində intellektual müsabiqənin qalib komandasının təltif edilməsi, o cümlədən Vəkillər Kollegiyasının Akademiyasının fəaliyyəti ilə bağlı təşkilatı məsələlərə baxılaraq, müsbət qərarlar çıxarılıb.

Eyni zamanda müxtəliflər nominasiyalar üzrə "İlin vəkili" mükafatının təsis edilməsi məsələsinə baxılıb. Qərara alınıb ki, Kollegiyada hər il "İlin vəkili" seçiləcək. Nəzərə çatdırılıb ki, bu il dövlət hesabına hüquqi yardım göstərən vəkillər sırasında ən çox uğurlu nəticə əldə edən vəkil "İlin vəkili" adına layiq görüləcək. Növbəti ildən etibarən isə həm dövlət hesabına, o cümlədən mülki, kommersiya, inzibati və cinayət işləri üzrə ən çox uğurlu nəticə qazanan vəkillər üçün də nominasiyalar təsis olunacaq.

Daha sonra vəkillərin digər vəkil qurumuna keçməsi, bəzi vəkillərin öz istəyi ilə vəkillik fəaliyyətlərinə xitam verilməsi və dayandırılması və müəyyən müddətə üzvlük haqqından azad olunması barədə müraciətlərinə baxılıb, müvafiq qərarlar qəbul olunub.

İclasın davamında Vəkillərin İntizam Komissiyasının rəylərinə baxılıb və Rəyasət Heyəti tərəfindən müvafiq qərarlar çıxarılıb.

Sonda Kollegiyanın fəaliyyəti ilə əlaqədar əhəmiyyət kəsb edən sair məsələlərə baxılıb.



# 2024-cü il ən böyük çöküş ili olacaq

***"2024-cü il həyatımızda görəcəyimiz ən böyük çöküş ili olacaq. Bu o deməkdir ki, biz təhlükəli vəziyyətdəyik".***

"Unikal" xəbər verir ki, bunu amerikal iqtisadçı Harri Dent "Fox News Digital"a müsahibəsində deyib. Onun sözlərinə görə, qısa zamanda normal vəziyyətə qayıtmalıyıq və mərkəzi banklara mesaj göndərməliyik.

İqtisadçı qeyd edib ki, iqtisadi çöküş əslində 2021-ci ilin sonlarında, COVID pandemiyasının yüksəkliyindən sonra başlayıb.

***Gülayə Mecid***

# Artıq çəkidən qurtula bilməməyin 5 SƏBƏBİ

***Ciddi, lakin sağlam qidalanma planına riayət etməyinizə baxmayaraq, arıqlaya bilmirsiniz?***

"Unikal" arıqlamağınıza mane olan səbəbləri sizinlə bölüşür:

**1. Stress**

Stressli dövrlərdə böyrəküstü vəzilərdən kortizol hormonu ifraz olunur. Kortizol enerji təmin etmək üçün vacib olsa da, iştahı artırır. Bu hormonal balanssızlıq kilo itkisini geri qaytarır.

**2. Gizli qidalanma**

Qlütenə qarşı həssaslıq və ya dözümsüzlük arıqlamağınızı çətinləşdirə bilər. Bunun qarşısını almaq üçün qlüten və süd məhsullarını xaric edin. Sonra bu qidaları alternativlərlə əvəz edin.

**3. Qeyri-kafi yuxu**

Vücudunuz üçün kifayət qədər yuxu almamaq yağın yanmasına mane ola bilər. Hər gecə yeddi-səkkiz saat yatmağı hədəfləməlisiniz. Çünki yuxu yağ tənzimləyən hormonlarımızı tarazlaşdırır və gün ərzində yemək istəyini azaldır.

**4. Həddindən artıq qəlyanaltı istehlak etmək**

Arıqlama prosesində əsas yeməklərinizə diqqət yetirdiyiniz halda, qəlyanaltılarla vaxt keçirsəniz, pəhriziniz pozula bilər.

**5. İdmanda fasilə**

Bir saatdan çox məşq edirsinizsə, bu, kortizol səviyyənizi yüksəldə və hədəflərinizə əks təsir göstərə bilər. Bunun əvəzinə 20-30 dəqiqəlik interval məşqi yağ yandıra və arıqlama prosesinizi dəstəkləyə bilər.

# Vəba və qarayara xəstəliyindən ölənlərin sayı artır

***Zambiyada iki təhlükəli yoluxucu xəstəliyin - vəba və qarayaranın yayıldığı bildirilir.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Səhiyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, bir gündə ölkədə vəbaya yoluxanların sayı 74 nəfər artıb, onlardan 70-i Lusakadadır. Həmçinin burada vəba xəstəliyindən daha üç nəfər ölüb, bununla da ümumi ölüm sayı 60-a çatıb.

Vəba "çirkli əllərin xəstəliyi" adlandırıldığından səlahiyyətlilər əhalini sanitariya və gigiyena qaydalarına riayət etməyə çağırıb. Zambiya ilə eyni vaxtda Zimbabve və Mozambikdə də vəba halları qeydə alınır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, Afrikada 2011-ci ildən bəri vəba xəstəliyində nəzərəçarpacaq artım müşahidə olunub.

***Fidan Camal***

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:33 PM Page 15



## Deputat Meral Akşenerin partiyasından istefa verdi



***Türkiyədə İYİ Partiyanın Ankaradan seçilən millət vəkili Yüksel Arslan partiyasından istefa verib.***

"Unikal" xəbər verir ki, bu barədə deputat özü açıqlayıb. Arslan istefa ərizəsində bildirib: "Mənsur Yavaşı dəstəkləməyi insani, vicdanlı və mənəvi bir məsuliyyət, sədaqət kimi görürəm. Yavaşı uşaqlıqdan tanıyıram".

Bu istefa ilə Meral Akşenerin lideri olduğu İYİ Partiyanın TBMM-dəki təmsilçilərinin sayı 38-ə enib.

## Putin ilin siyasətçisi seçildi



***Rusiyanın hazırkı prezidenti Vladimir Putin rusiyalıların 55%-i tərəfindən ilin siyasətçisi seçilib.***

"Unikal" xəbər verir ki, bu barədə "RİA Novosti" məlumat yayıb.

Bildirilir ki, bununla bağlı VTsIOM-Sputnik sorğu keçirib. Sorğu dekabrın 8-də və 16-da 1,6 min respondent arasında təbəqələşdirilmiş təsadüfi seçimdən istifadə etməklə telefon müsahibəsi vasitəsilə aparılıb.

Putindən başqa, respondentlərin 21%-i baş nazir Mixail Mişustini ilin siyasətçisi hesab edib. Respondentlərin daha 18%-i xarici işlər naziri Sergey Lavrovun , 4%-i isə müdafiə naziri Sergey Şoyqunun adını çəkə biləcəklərini bildirib.

*Gülayə Mecid*

## "Fransa Ukraynaya vəsait ayırmağa davam edəcək" - Makron



***Fransa Ukraynaya yardım üçün vəsait ayırmağa davam edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Fransa prezidenti Emmanuel Makron bildirib.

"Biz Ukraynanı dəstəkləməyə davam etməliyik, çünki bu, bizə sülh şəraitində yaşamaq imkanı verəcək. Biz Rusiya ilə müharibə aparmırıq. Lakin biz Rusiyanın qalib gəlməsinə imkan verməməliyik", - o, "France 5" telekanalında deyib.

*Ağarza*

## Ukrayna müdafiə naziri övladlarına ABŞ vətəndaşlığı alıb



***Ukrayna Müdafiə Nazirliyinin rəhbəri Rustem Umyerovun üç övladının ABŞ vətəndaşı olması barədə məlumat yayılıb.***

"Unikal" xəbər verir ki, bu barədə UNİAN məlumat yayıb.

Bildirilir ki, Umerovun övladlarının 2022-ci ildən Amerika pasportlarına malik olduqları qeyd olunub. Nəşr iddia edir ki, müdafiə nazirinin ikinci qızı doğulandan dərhal sonra ABŞ pasportu alıb. Həmçinin, nazirin oğlu Seyid Əhməd Umyerovun Ukrayna vətəndaşlığı olsa da, qeydiyyat yerinin ABŞ olduğu göstərilib.

*Gülayə*

## "Şahramanyan da məhkəmə qarşısına çıxarılmalıdır" - Petorsyan



***Qarabağda yaradılmış qondarma separatçı rejim antiterror əməliyyatından sonra özünü buraxdı, bundan sonra 2024-cü ilin 1 yanvarında onun ləğvi haqqında fərman verildi.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bu barədə separatçı rejimin nümayəndəsi Tiqran Petorsyan bildirib.

Onun sözlərinə görə, separatçıların nümayəndələri "Artsax"ın ləğvi haqqında fərmanın qüvvədən düşməsi haqqında fərman imzalatmaq istəyirlər: "Bu gün səhər mən Samvel Şahramanyanla görüşmək məqsədi ilə nümayəndəliyə getdim. Təəssüflər olsun ki, Şahramanyan məni qəbul etməyi lazım bilməyib.

Məhkəmə qarşısında təkcə keçmiş quldurlar Bako Saakyan, Arayik Arutyunyan deyil, Şahramanyan da çıxmalıdır", - deyə Petorsyan yazıb.

*Ağarza Elçinoğlu*

## Bu ölkə Avropa Birliyinin gələcək lideri ola bilər

***ABŞ Polşanı Avropa Birliyinin gələcək lideri kimi görür, çünki Varşava müdafiəyə digərlərindən daha çox pul xərcləyir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu ABŞ dövlət katibinin Avropa məsələləri üzrə müavini Ceyms O'Brayen deyib.

O'Brayenin sözlərinə görə, ABŞ və Polşa təhlükəsizlik sahəsində həmişə çox sıx əməkdaşlıq ediblər. O, NATO-nun şərq cinahını gücləndirmək qərarına gəldiyini də xatırladıb. Bundan əvvəl Polşanın xarici işlər naziri Szymon Szynkowski vel Senk bəyan etmişdi ki, Varşava NATO öhdəliklərini nümunəvi şəkildə yerinə yetirir və ÜDM-in təxminən 4%-ni müdafiəyə xərcləyir.

*Gülayə Mecid*



## "Nüvə zərbəsi endirməkdən çəkinməyəcəyik" - Kim Çen In

***Pxenyan düşmən tərəfindən təxribata məruz qalacağı təqdirdə nüvə zərbəsi endirməkdən çəkinməyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Şimali Koreya lideri Kim Çen In açıqlayıb.

O, qitələrarası ballistik raketin buraxılışının bu yaxınlarda həyata keçirilməsi ilə bağlı silahlı qüvvələrin raket komandanlığının əsgərləri ilə görüşündə bildirib: "Görülən qətiyyətli hərbi fəaliyyət, düşmənin nüvə silahı ilə təhrik etdiyi zaman nüvə hücumuna belə mane olmamaq üçün KXDR-in nüvə strategiyası və doktrinasının təkamülü və hücum əks-tədbirləri rejiminin aydın izahı idi".



*Ağarza Elçinoğlu*

## Ərdoğan Kılıçdaroğludan aldığı təzminatı Qəzzaya bağışladı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan CHP-nin keçmiş sədri Kamal Kılıçdaroğludan qazandığı 65 min lirəlik (3 796 AZN) mənəvi təzminatı Qəzzada kimsəsiz uşaqlara xərclənmək üçün Türk Qızıl Aypara Cəmiyyətinə bağışlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Anadolu" agentliyi məlumat yayıb.

Xatırladaq ki, Ərdoğan 2021-ci il yanvarın 26-da Türkiyə Böyük Millət Məclisindəki çıxışında şəxsi hüquqlarını pozduğuna görə Kılıçdaroğluya qarşı iddia qaldırmışdı.

*Gülayə Mecid*



## "Sülhməramlıların vasitəçiliyi sayəsində ataşkəs əldə olundu" - Gerasimov

***Zaqafqaziyada vəziyyət gərgin olmaqda davam edir, lakin vəziyyət sabitləşməyə meyillidir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov bu gün Moskvada keçirdiyi brifinqdə bildirib.

"Rusiya Federasiyası Zaqafqaziyada nəqliyyat kommunikasiyalarının açılması, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması, eləcə də ən kəskin Ermənistan-Azərbaycan münaqişələrinin həlli istiqamətində siyasi sahədə məqsədyönlü iş aparır", - Gerasimov deyib. "Rusiya sülhməramlıları Qarabağ sakinlərinin bölgəyə qaytarılması imkanlarının təminatçısıdır. Bu ilin sentyabrında Rusiya sülhməramlılarının vasitəçilik səyləri sayəsində 24 saat ərzində ataşkəs əldə olundu. Hərbi əməliyyatlar zamanı Rusiya sülhməramlı kontingenti 10 mindən çox dinc sakinin öz dislokasiya yerlərinə köçürülməsini, daha sonra isə demək olar ki, bütün Qarabağ ermənilərinin Ermənistan ərazisinə təhlükəsiz çıxışını təmin edib. Sülhməramlılar 300-ə yaxın yaralını hava nəqliyyatı ilə xəstəxanalara çatdırıblar", - Gerasimov qeyd edib.

*Ağarza Elçinoğlu*

UNI-45_27 IYUI-QARA.qxd 12/21/2023 11:33 PM Page 16



# “Qarabağ” Xankəndidə MOİK-ə qalib gəldi

***Futbol üzrə Azərbaycan Kubokunda 1/8 final mərhələsinin daha bir oyunu keçirilib.***

”Unikal” xəbər verir ki, “Qarabağ” MOİK-lə üz-üzə gəlib.

Xankəndi şəhər stadionundakı qarşılaşma Ağdam təmsilçisinin 1:0 hesablı qələbəsi ilə bitib. 90+5-ci dəqiqədə Nəriman Axundzadə qələbə qoluna imza atıb.

“Köhlən atlar” 1/4 “Sabah”la üz-üzə gələcək.



# “İmarət” stadionu yenidən inşa ediləcək

***Bütün başqa şəhərlər kimi bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində “İmarət” stadionunun yenidən inşasına başlanılacaq.***




”Unikal” xəbər verir ki, bunu Prezident İlham Əliyev dekabrın 21-də futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında Xankəndi stadionunda keçirilən oyundan əvvəl çıxışında deyib.

“Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir. Bugünkü oyunda “Qarabağ” və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir”, - deyə dövlət başçısı vurğulayıb.

# Şəhidin Vüsal Kazımovun xatirəsinə həsr olunmuş boks yarışı keçirilib

***Lənkəran Olimpiya İdman Kompleksində Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsinin şəhidi 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeninə, ”Vətən uğrunda”, ”İgidliyə görə”, Xocavəndin və Füzulinin azadlığına görə medallarla təltif olunan baş leytenant Vüsal Kazımovun xatirəsinə həsr olunan ənənəvi boks idman növü üzrə üçüncü Lənkəran - Astara Region birinciliyi keçirildi.***




Vətən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni oxundu.

Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə və Vüsal Kazımovun atası Lənkəran Dövlət Universitetinin prorektoru professor Kamran Kazımov öz halal qanı bahasına torpağı Vətən edən şəhidlərin keçdiyi şərəfli döyüş yolundan danışdılar və dövlətimizin başçısı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tərəfindən şəhidlərin xatirəsinin əziz tutulmasını , şəhid ailələrinə olan diqqət və qayğını xatırladılar. Sonda 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində parlaq qələbə çalaraq tarixi zəfərə imza atan ölməz Vətən övladlarının xatirəsini uca tutmaq, onları daima yad etmək hər bir vətəndaşımızın borcu olduğu bildirərək, yarışa qatılan idmançılara uğurlar dilədilər.

Baş hakim Nazim Qulamov yarışa start verdi, Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayonundan olan 56 idmançı mübarizə başladılar . Olduqca gərgin, maraqlı keçən yarışda müxtəlif çəki üzrə yer tutan idmançılar diplom və medallarla təltif edildilər.

Bir daha bildirək ki, Lənkəran Dövlət Universitetinin məzunu olan Vüsal Kazımov 44 günlük haqq savaşımıza yola düşən günədək Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifəsində çalışıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Barselona"dan Levandovski ilə bağlı qərar

***Robert Levandovski ”Barselona”nı tərk etməyəcək.***

”Unikal” xəbər verir ki, bu məlumatı ”AS” nəşri yayıb. Bildirilib ki, Kataloniya təmsilçisi polşalı hücumçunu satmaq niyyətində deyil.

Joan Laporta forvard güvənir. ”Barselona” prezidenti Levandovskinin komandada böyük işlər görəcəyinə inanır. Bu səbəbdən də polşalı Səudiyyə Ərəbistanından gələn təklifləri qəbul etməyəcək.

Ümumiyyətlə, ”Barselona” nə qışda, nə də yayda hücumçunu satmaq niyyətində deyil.

# Ramilin komandası 1/8 finalda

***Tayland kubokunda 1/16 final mərhələsinin oyunları keçirilir.***



Ramil Şeydayevin də formasını geyindiyi ”Buriram Yunayted” üçüncü liqa təmsilçisi ”Uttaradit”lə qarşılaşıb. Matç ”Buriram Yunayted”in 2:1 hesablı qələbəsi ilə başa çatıb. Bununla da ”Buriram Yunayted” 1/8 finala yüksəlib.

Ramil Şeydayev bu oyunda meydana çıxmayıb.

# Azərbaycan millisinin FIFA reytinqindəki mövqeyi dəyişmədi

***FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.***

”Unikal” qurumun rəsmi saytına istinadən xəbər verir ki, yeni siyahıda Azərbaycan yığmasının mövqeyi dəyişməyib.

Hazırda baş məşqçisi olan komanda 1174.22 xalla 114-cü sırada qərarlaşıb.

Reytinq siyahısına əvvəlki kimi Argentina seçməsi (1855.2 xal) başçılıq edir. Fransa (1845,44) ikinci, İngiltərə (1800.05) üçüncü pilləni tutur.

Türkiyə yığması (1505.28) isə 37-ci sırada yer alıb.

# PSJ bu mövsüm oynamayan futbolçu ilə yeni müqavilə imzaladı




***PSJ futbolçusu Presnel Kimpembe ilə yeni müqavilə imzalayıb.***

Bu barədə klubun saytı məlumat yayıb. Fransalı müdafiəçi ilə müqavilənin müddəti 2026-cı ilin iyununa kimi uzadılıb.

Kimpembe PSJ-nin yetirməsidir. 28 yaşlı futbolçu 2015-ci ilin iyulunda oynamağa başladığı akademiyadan əsas komandaya qədər yüksəlib.

Kimpembe 2023-cü ilin fevralında ”Marsel”lə matçda (0:3) sağ axilles vətərinin qopması səbəbindən bu mövsüm heç bir matç oynamayıb.

# Avropa Superliqasının başlama tarixi məlum oldu

***Avropa Superliqası 18 aydan sonra başlayacaq.***




QOL.az xəbər verir ki, bu barədə ispaniyalı insayder Joaquin Maroto məlumat verib.

Xatırladaq ki, bu gün, dekabrın 21-də Avropa Məhkəməsi FİFA və UEFA-nın 2021-ci ildə Super Liqanın yaradılmasını qadağan edən hərəkətlərini qanunsuz elan edib.

Təşkilatların Avropada klub yarışlarında monopoliyası yoxdur. Superliqa indi Avropa qanunlarına uyğun olaraq rəsmi olaraq yaradıla bilər.

Xatırladaq ki, 2021-ci ilin mayında Superliqa UEFA və FİFA-nı rəqabət qanunlarını pozmaqda ittiham etmişdi. Həmin ilin aprelində Avropanın 12 klubu Superliqanın yaradıldığını elan etmişdi. Buray İngiltərənin “Arsenal”, “Liverpul”, “Mançester Siti”, “Mançester Yunayted”, “Tottenhem”, “Çelsi”, İspaniyanın “Atletiko ”, “Barselona”, “Real”, həmçinin İtaliyanın “İnter”, “Milan” və “Yuventus” klubları daxil idi.